# ÖYRƏN - ÖYRƏT

https://archive.org/details/@oyrenoyret2021

DİNİ VƏ ELMİ HƏQİQƏTLƏR - 2



*De: "Mən bunun müqabilində sizdən heç bir əvəz istəmirəm. Yalnız Rəbbinə doğru bir yol tutmaq istəyən kimsələr olmalarını istəyirəm."*
*(Furqan surəsi, 57)*

## İÇİNDƏKİ BÖLÜMLƏR:

⇒ Elmi Həqiqətlər
⇒ Qurandan Mövzular
⇒ İman Həqiqətləri
⇒ Qurandan Soruş
⇒ Uşaqlar Üçün
⇒ Müqəddəs Kitablardan Qeydlər
⇒ Əlavə Mövzular

oyrenoyret2021@gmail.com

# Kainatın Sonu və "Biq Krənç"

Qeyd etdiyimiz kimi, kainatın yaradılması "Biq bənq" deyilən böyük partlayışla başlayıb. Həmin dövrdən indiyə qədər də kainat genişlənməkdədir. Alimlər bildirir ki, kainatın kütləsi kifayət edəcək miqdara çatanda bu genişlənmə prosesi cazibə qüvvəsinə görə dayanacaq və bu da kainatın öz daxilinə çəkilməyə, büzülməyə başlamasına səbəb olacaq. *(Philip Ball, "Black Crunch Jams Universal Cycle", Nature, 23 dekabr 2002; Dr. David Whitehouse, "Universe is 'doomed to collapse'", BBC News Online, 22 oktyabr 2002, http://news.bbc.co.uk/1/hi/sci/tech/2346907.stm; Mark Schwartz, "Cosmic 'big crunch' could trigger an early demise of our universe", Stanford Report, 25 sentyabr 2002.)*

Kainatın büzülməsi prosesinin isə axırda "Big crunch" ("Böyük çöküş") deyilən çox yüksək bir istilik və sıxılma ilə nəticələnəcəyi qeyd edilir. Bu isə bizə məlum olan bütün həyatın yox olması mənasına gəlir. Stenford Universitetinin fizika professoru Renata Kalloş (Renata Kallosh) və Endryu Lindenin (Andrew Linde) bu mövzu haqqındakı açıqlamaları isə belədir:

«Kainatın aqibəti kiçilməyə və yox olmağa tərəf gedir. Gördüyümüz və daha uzaqlarda olduğundan görə bilmədiyimiz hər şey bir protondan da kiçik bir nöqtə şəklində kiçiləcək. Sanki qara deşiyin daxilində imişsiniz kimi... Qara enerjinin ən yaxşı tərifinin bu izah olduğunu tapdıq: «Mərhələ-mərhələ neqativ hala gələn bu qara enerji kainatın balansının dəyişməsinə səbəb olacaq və büzülüb çökəcək».

Fiziklər qara enerjinin neqativ enerjiyə çevriləcəyini və kainatın yaxın gələcəkdə büzüləcəyini bilirlər. Lakin bu gün görürük ki, biz bu hadisənin başlanğıcında deyilik, amma kainatımızın həyat sirkulyasiyasının ortasında da ola bilərik». *(Mark Schwartz, "Cosmic 'big crunch' could trigger an early demise of our universe", Stanford Report, 25 sentyabr 2002.)*



"Biq krənç" kimi ifadə edilən bu elmi nəzəriyyəyə Quranda belə işarə edilir:

**"Göyü kitab səhifəsi kimi büküb qatlayacağımız günü yadınıza salın. İlk dəfə yaratdığımız kimi qaytarıb əvvəlki halına salırıq. Biz yerinə yetirməli olduğumuz vədi mütləq yerinə yetirəcəyik".** (Ənbiya surəsi, 104)

Başqa bir ayədə isə göylərin bu vəziyyəti belə izah olunur:

**"Allahı lazımınca qiymətləndirmədilər. Halbuki, qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq, göylər isə Onun sağ əli ilə büküləcəkdir.** *(Allah müşriklərin Ona)*, **aid etdikləri sifətlərdən tamamilə uzaq və ucadır!"**

(Zumər surəsi, 67)

"Biq krənç" nəzəriyyəsinə görə, kainat başlanğıcda olduğu kimi, əvvəlcə, yavaş-yavaş, sonra tədricən sürətlə dağılmağa başlayacaq. Bütün bunlardan sonra isə sonsuz yoğunluq və sonsuz hərarətdə, sonsuz kiçiklikdə bir nöqtə halına gələcək. Bu elmi nəzəriyyə Quran ayələri ilə tam şəkildə üst-üstə düşür (doğrusunu Allah bilir).

# İsti Tüstüdən Yaradılış

Bu gün alimlər ulduzların isti qaz buludundan meydana gəldiyini bildirirlər. İsti qaz kütləsindən meydana gəlmək həm də kainatın yaradılması ilə əlaqədardır.

Kainatın yaradılışı barədəki bu elmi kəşfləri Quran da təsdiq edir:

**"O, yer üzündə möhkəm durmuş dağlar yaratdı, onu bərəkətli etdi və istəyənlər üçün bərabər olaraq orada yer əhlinin ruzisini dörd gündə müəyyən etdi. Sonra Allah tüstü halında olan göyə üz tutdu. Ona və yerə belə buyurdu: "İstər-istəməz vücuda gəlin!" Onlar da "İstəyərək vücuda gəldik!" deyə cavab verdilər".** (Fussilət surəsi, 10-11)

Bu ayədə qeyd edilən "tüstü" ifadəsi ərəb dilində "duxan" kəlməsi şəklindədir. Bu kəlmə adı Quranda çəkilən isti bir kosmik tüstünü ifadə edir. Qatı maddələrə bağlı uçan kiçik hissələri ehtiva edən, isti qaz halında bir kütlə olan bu tüstü forması Quran ayəsinə tam uyğun gəlir. Bəlli olduğu kimi, Quranda kainatın bu mərhələdəki görünüşünü təsvir edən ən münasib sözdən istifadə olunub. Alimlər isə kainatın tüstü halındakı isti bir qaz kütləsindən əmələ gəldiyini yalnız XX əsrdə kəşf etmişlər. *(Mahdi La'li, A Comprehensive Exploration of the Scientific Mireacles in Holy Qur'an, Trafford, Kanada, 2003, ss. 35-38.)*



Həmçinin "Sonra Allah tüstü halında olan göyə üz tutdu" ifadəsindəki "sonra" deyə tərcümə edilən ərəb dilindəki "summə" kəlməsinin "bununla belə, bundan başqa, üstəlik, yenə, bir daha" kimi başqa mənaları da mövcuddur. Burada da "summə" kəlməsi bir zaman ifadəsi olaraq deyil, əlavə izah kimi istifadə edilir. *(Ebu'l-A'lv Mevdıdo, Tefhimu'l Kur'an; http://www.enfal.de/tefhim/)*

Kainatın yaranması haqqındakı bu məlumatın ilk dəfə Quranda bildirilməsi, şübhəsiz ki, Quranın elm sahəsindəki növbəti möcüzəsidir.

## Göylərlə Yerin Bir-Birindən Ayrılması

Quranda göylərin yaradılması ilə bağlı məlumat verən başqa bir ayə isə belədir:

**"Məgər kafir olanlar göylə yer bitişik ikən bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi?! Yenə də iman gətirməzlər?"** (Ənbiya surəsi, 30)

Ayənin "bitişik" mənasına gələn "ratq" kəlməsi ərəb dilində "bir-biri ilə bitişik", "ayrılmaz bir vəziyyətdə", "bütünləşmiş" mənalarına gəlir. Yəni bu söz vahid bir tam halında, bütöv olan iki maddəni ifadə etmək üçün işlədilir. Ayədəki "ayırdığımızı" ifadəsi isə ərəb dilindəki "fatq" feili ilə işlədilib ki, bu ifadə də "bitişik vəziyyətdə olan bir nəsnəni yarıb, parçalayıb çölə çıxması" mənasına gəlir. Məsələn, toxumun cücərərək torpaqdan çıxması da ərəb dilində bu kəlmə ilə ifadə olunur.



İndi ayəyə təkrar nəzər yetirək. Ayədə göylərlə yerin bir-biri ilə bitişik, yəni "ratq" vəziyyətində olmasından bəhs edilir. Ayədə həmin kəlmədən dərhal sonra gələn "fatq" feili ilə bunların ayrılması bildirilir. Yəni biri digərini yararaq çölə çıxır. Həqiqətən də, "Biq bənq"in ilkin görünüşünü fikirləşəndə kainatın bütün maddələrinin bir nöqtədə toplandığını görürük. Başqa bir ifadə ilə, hər şey, hətta hələ yaradılmamış olan göylər və yer də bu nöqtənin içində, bir-biri ilə bitişik, ayrılmaz vəziyyətdə idilər. Bundan sonra bu nöqtə şiddətli bir partlayışla yarılır və göylə yer bir-birindən ayrılırlar.

## Göylərlə Yerin Arasında Olanların Yaradılışı

Quranda göylərin, yerin və onların arasında olanların yaradılması ilə bağlı müxtəlif ayələr var:

**"Biz göyləri, yeri və onların arasında olan hər şeyi yalnız haqq-ədalətlə yaratdıq. O saat mütləq gələcəkdir. Sən** *(müşriklərdən)* **yaxşıca üz döndər".**

(Hicr surəsi, 85)

**"Göylərdə və yerdə, onların arasında və torpağın altında nə varsa Onundur".** (Ta Ha surəsi, 6)

**"Biz göyü, yeri və onların arasında olanları oyun-oyuncaq yaratmadıq".**

(Ənbiya surəsi, 16)

Elm adamları isti bir qaz kütləsinin başlanğıc mərhələdə artıb qalınlaşdığını, sonra bu kütlənin hissələrə ayrılaraq qalaktika maddələrini, ulduzları, planetləri əmələ gətirdiyini bildirir. Başqa sözlə, Yer kürəsi də daxil olmaqla, bütün ulduzlar bitişik bir qaz kütləsindən ayrılan hissələrdir. Bu hissələrdən bir qismi ulduzları, günəşləri, planetləri əmələ gətirib. Bununla da çoxlu günəş sistemləri və qalaktikalar meydana gəlib. Əvvəlki səhifələrdə də qeyd edildiyi kimi, kainat "ratq" ("bir-birinə bitişik") halda ikən "fatq" ("hissələrə ayrılmışdır") olmuşdur. Kainatın meydana gəlməsi hadisəsi Quranda bu elmi izahları təsdiq edən münasib ifadələrlə qeyd edilmişdir. *(Dr. Mazhar U. Kazi, 130 Evident Miracles in the Qur'an, Crescent Publishing House, New York, ABŞ, 1998, s. 53.)*



Kosmosda yeni meydana gələn əsas cisimlərdən başqa bir neçə hissə hər parçalanmanın ayrılma olması səbəbi ilə kənarda qalmışdır. Bu əlavə hissələrin elmi adı "ulduzlar arasındakı qalaktika maddəsi"dir.

Ulduzlararası maddə 60 faiz hidrogen, 38 faiz helium və 2 faiz də başqa elementlərdən meydana gəlib. Ulduzlararası maddənin 99 faizi qaz, 1 faizi də başqa elementlərin 0,0001-0,001 miqyaslı toz zərrəciklərindən ibarətdir. *(Meyers Lexikon in drei Bdnden Bibliographisches Institut & F.A. Brockhaus AG, Mannheim 1995, Digitale Ausgabe LexiRom.)*

Alimlər bu maddələrin astrofizik hesablamalar baxımından çox əhəmiyyətli olduğunu bildirir. Həmçinin bu maddələr toz, tüstü və ya qaz adlandırılacaq qədər incə maddələrdir. Lakin bu maddələrin

hamısı göz önünə gətiriləndə onların kosmosdakı qalaktikaların hamısından daha böyük bir kütlə olduğunu düşünməyə əsaslar yaradır.
Qalaktikalardan təcrid olmuş bu maddələrin mövcudluğu ilk dəfə 1920-ci ildə kəşf edilməsinə baxmayaraq, onların mövcudluğu yuxarıda göstərdiyimiz ayələrdə yer alan və "ikisinin arasındakılar", "onların arasında olan hər şey" kimi tərcümə edilən "mə bəynəhumə" ifadəsi ilə Quranda hələ 14 əsr əvvəl xəbər verilmişdir.

## Kainatdakı Mükəmməl Müvazinət

**"Yeddi göyü qat-qat yaradan da Odur. Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb bax, heç orada bir yarıq görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır!"** (Mulk surəsi, 3-4)

Kainatdakı milyardlarla ulduz və qalaktika onlar üçün mükəmməl tarazlıqda təyin edilmiş oxları ətrafında hərəkət edirlər. Ulduzlar, planetlər və peyklər həm öz oxları ətrafında, həm də bağlı olduqları sistemlə birlikdə daimi hərəkətdədir. İçində bəzən hətta 200-300 milyard ulduz olan qalaktikalar bir-birinin arasından keçib gedirlər. Belə keçidlər zamanı kainatdakı böyük sistemi dağıdacaq heç bir toqquşma ola bilməz.
Kainatdakı sürəti bizim bildiyimiz ölçü, hesab və standartlarla müqayisə etmək çox çətindir. Milyardlarla, hətta trilyonlarla ton ağırlığındakı ulduzlar, planetlər, saysız dəyərləri ancaq riyaziyyatçıların başa düşəcəyi ölçüdə olan nəhəng qalaktikalar və qalaktika kümələri kosmosda fövqəltəbii sürətlə hərəkət edirlər. Məsələn, Yer kürəsi öz oxu ətrafında saatda 1670 km sürətlə hərəkət edir. Bu gün ən sürətli güllənin saatda təxminən 1800 km-lik bir sürətə malik olduğunu nəzərə alsaq, Yer kürəsinin sürətinin onun nəhəngliyinə baxmayaraq necə böyük olması aydınlaşar.
Dünyanın Günəş ətrafındakı sürəti isə güllənin sürətindən təxminən 60 dəfə çoxdur - saatda 108000 km! (Bu cür böyük sürətlə hərəkət edən bir nəqliyyat vasitəsi düzəldilsəydi, o, Yer kürəsinin ətrafında 22 dəqiqəyə dolana bilərdi).



Bu rəqəmlər ancaq Yer kürəsi ilə bağlıdır. Günəş sistemi isə daha heyrətamiz və möcüzəlidir. Bu sistemin sürəti idrak və məntiq çərçivələrini də aşacaq səviyyədə yüksəkdir. Kainatdakı sistemlər böyüdükcə sürət də çoxalır. Yer kürəsinin Günəş sisteminin qalaktika mərkəzi ətrafındakı sürəti saatda 720 000 kilometrdir. Təxminən 200 milyard ulduzu olan "Samanyolu Qalaktikası"nın kosmosdakı sürəti isə saatda 950 000 kilometrdir.
Şübhə yoxdur ki, belə qarışıq və sürətli bir sistemdə nəhəng toqquşmaların olması mümkündür. Ancaq belə bir hadisə baş vermir və bu səbəbdən də həyatımızı əmin-amanlıqda davam etdiririk. Çünki kainatdakı hər şey Allahın yaratdığı qüsursuz sistemə görə hərəkət edir. Buna görə də ayədə bildirildiyi kimi, bütün bu sistemdə heç bir uyğunsuzluq yoxdur.

# Kafirlər Dirildilməyəcəklərini İddia Edirlər

**ƏNAM, 29:** Onlar dedilər: "Dünya həyatımızdan başqa bir həyat yoxdur və biz dirildilməyəcəyik!"

**HUD, 7:** Hansınızın daha yaxşı əməl sahibi olduğunu sınamaq üçün, Ərşi su üzərində ikən, göyləri və yeri altı gündə yaradan Odur. Əgər sən: "Siz öləndən sonra diriləcəksiniz!"– desən, kafir olanlar: "Bu, açıq-aydın bir sehrdir!"– deyərlər.

**RƏD, 5:** Əgər təəccüblənirsənsə, onların: "Doğrudanmı biz torpaq olduqdan sonra yenidən yaradılacağıq?" sözünə təəccüblən. Onlar Rəbbini inkar edənlərdir. Onlar boyunlarında qandallar olanlardır. Onlar Od sakinləridirlər və orada əbədi qalacaqlar.

**NƏHL, 38:** Onlar Allaha möhkəm and içdilər ki: "Allah ölən bir kəsi diriltməyəcəkdir!" Xeyr! Allahın ölüləri diriltməsi Onun doğru vədinə görə olacaq, lakin insanların çoxu bunu bilmirlər.



**İSRA, 49:** Onlar deyirlər: "Biz sür-sümük və toz halına düşdüyümüz zaman yeni bir məxluq kimi dirildiləcəyikmi?"

**İSRA, 50:** De: "İstər daş olun, istər dəmir,

**İSRA, 51:** və ya sizə nəhəng görünən bir məxluq olun, yenə də Allah sizi diriltməyə qadirdir". Onlar deyəcəklər: "Bizi həyata kim qaytaracaq?" De: "İlk dəfə sizi yaradan!" Onlar istehza ilə başlarını yırğalayıb: "Bəs bu nə vaxt olacaqdır?"– deyəcəklər. De: "Bəlkə də, yaxın zamanda oldu!"

**İSRA, 52:** O gün Allah sizi çağıracaq. Siz də Ona həmd edərək çağırışına cavab verəcək və dünyada çox az qaldığınızı güman edəcəksiniz.

**İSRA, 98:** Bu, ayələrimizi inkar etdiklərinə və: "Məgər biz sür-sümük və ovuntu olduğumuz halda yeni bir məxluq olaraq dirildiləcəyik?"– dediklərinə görə onların cəzasıdır.

**NƏML, 67:** Kafirlər dedilər: "Məgər biz və atalarımız torpağa qarışdıqdan sonra qəbirlərdən çıxardılacağıq?

**NƏML, 68:** Bu dirilmə həm bizə, həm də əvvəllər atalarımıza vəd olunmuşdu. Bu, keçmişdəkilərin uydurduğu əfsanələrindən başqa bir şey deyildir".

**SƏCDƏ, 10:** Onlar deyirlər: "Biz torpağın içində yox olandan sonra yenidənmi yaradılacağıq?" Doğrusu, onlar öz Rəbbi ilə qarşılaşacaqlarını inkar edirlər.

**SƏCDƏ, 11:** De: "Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaq, sonra da Rəbbinizə qaytarılacaqsınız!"

**SƏBA, 7:** Kafirlər dedilər: "Çürüyüb parça-parça olduqdan sonra yenidən yaradılacağınızı xəbər verən bir kişini sizə göstərəkmi?

**SƏBA, 8:** Əcəba, o, Allahın əleyhinə yalanmı quraşdırır, bəlkə onda divanəlik var?" Xeyr! Axirətə inanmayanlar əzaba düçar olacaq, dərin bir azğınlıq içində qalacaqlar.

**YA SİN, 78:** O Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu. O dedi: "Çürümüş sümükləri kim dirildə bilər?"

**YA SİN, 79:** De: "Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir. O, hər bir məxluquna yaxşı bələddir.

**SAFFAT, 16:** Məgər biz öldükdən, sür-sümük olub torpağa çevrildikdən sonra dirildiləcəyikmi?

**SAFFAT, 17:** Ya da atalarımızmı dirildiləcəklər?"

**SAFFAT, 18:** De: "Bəli, özü də, zəlil günə qalmış olduğunuz halda dirildiləcəksiniz".

**SAFFAT, 19:** Bu, təkcə dəhşətli bir səs olacaq və onlar qəfildən dirilib görməyə başlayacaqlar.

# İnsanların Rəbbinə Qarşı Nankorluqları:

**FUSSİLƏT, 49:** İnsan özünə xeyir diləməkdən usanmaz. Lakin ona bir pislik dəysə, məyus olub ümidini itirər.

**FUSSİLƏT, 50:** Başına gələn bəladan sonra Özümüzdən ona bir mərhəmət daddırsaq, mütləq deyər: "Bu mənim haqqımdır və Mən o Saatın gələcəyini güman etmirəm. Rəbbimə qaytarılsam belə, Onun yanında mənim üçün ən gözəl nemət hazırlanar!" Biz kafirlərə nə etdiklərini mütləq xəbər verəcək və onlara hökmən ağır bir əzab daddıracağıq.

**QASAS, 76:** Həqiqətən, Qarun Musa ilə həmtayfa idi. Amma onlara qarşı yamanlıq edirdi. Biz ona elə xəzinələr vermişdik ki, onların açarlarını daşımaq bir dəstə qüvvətli adama ağır gəlirdi. Qövmü ona dedi: "Öyünmə! Həqiqətən, Allah öyünənləri sevmir.

**QASAS, 77:** Allahın sənə verdiyi ilə Axirət yurduna can at. Dünyadakı nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi, sən də başqalarına yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə çalışma. Şübhəsiz ki, Allah fitnə-fəsad törədənləri sevmir".

**QASAS, 78:** Qarun dedi: "Bu mənə ancaq məndə olan biliyə görə verilmişdir". Məgər o bilmirdi ki, Allah ondan əvvəlki nəsillərdən, ondan daha qüvvətli və daha çox var-dövlət yığan kəsləri məhv etmişdir? Günahkarlar öz günahları barəsində sorğu-sual olunmaz (üzlərindən tanınarlar).

**KƏHF, 32:** Onlara iki kişinin əhvalatını misal çək. Bunların birinə iki üzüm bağı verib onları xurmalıqlarla əhatə etdik və aralarında əkin saldıq.

**KƏHF, 33:** Hər iki bağ öz barını verdi və bu bardan heç bir şey əskilmədi. Biz də onların arasından bir çay axıtdıq.

**KƏHF, 34:** Onun başqa sərvəti də var idi. O öz mömin yoldaşı ilə söhbət edərkən ona: "Mən sərvətcə səndən daha zəngin və adamlarıma görə səndən daha qüvvətliyəm!"– dedi.

**KƏHF, 35:** O özünə zülm edərək bağına daxil olub dedi: "Bunun nə vaxtsa yox ola biləcəyini düşünmürəm.

**KƏHF, 36:** O Saatın gələcəyini də zənn etmirəm. Rəbbimin yanına qaytarılmalı olsam, sözsüz ki, bundan daha firavan bir həyat qismətim olacaq!"

**KƏHF, 37:** Onunla söhbət edən yoldaşı isə dedi: "Səni torpaqdan, sonra nütfədən yaratmış, daha sonra səni kişi qiyafəsinə salmış Rəbbinə küfrmü edirsən?

**KƏHF, 38:** Lakin Allah mənim Rəbbimdir və mən heç kəsi Rəbbimə şərik qoşmaram!

**KƏHF, 39:** Bağına girdiyin zaman: "Maşallah (Allahın istədiyidir)! Qüvvət yalnız Allaha məxsusdur!"– deməli deyildinmi? Əgər var-dövlətcə və övladca məni özündən kasıb sayırsansa,

**KƏHF, 40:** ola bilsin ki, Rəbbim mənə sənin bağından daha yaxşısını versin, sənin bağına isə göydən bir bəla göndərsin və o, hamar bir yerə dönsün.

**KƏHF, 41:** Yaxud suyu çəkilib getsin və bir də onu axtarıb tapa bilməyəsən!"

**KƏHF, 42:** Beləcə, onun bağının məhsulu bir anda məhv edildi. O, bağını belə görüb ora qoyduğu xərcə görə peşmançılıq çəkməyə və əllərini bir-birinə vurmağa başladı. Bağın talvarları belə darmadağın olub yerə yıxılmışdı. O dedi: "Kaş Rəbbimə heç kəsi şərik qoşmayaydım!"

**KƏHF, 43:** Allahdan başqa ona yardım edə biləcək dostlar yox idi və o da öz-özünə kömək edə bilməzdi.

**BƏQƏRƏ, 152:** Siz Məni yad edin ki, Mən də sizi yad edim! Mənə şükür edin, Mənə küfr etməyin!

**HUD, 9:** Əgər insana Özümüzdən bir mərhəmət daddırsaq, sonra da ondan onu geri alsaq, o, naümid və nankor olar.

**HUD, 10:** Əgər başına gələn müsibətdən sonra, ona firavanlıq daddırsaq: "Bəlalar məndən sovuşdu!"– deyər və sevinib lovğalıq edər.

**İBRAHİM, 28:** Məgər sən Allahın nemətlərini küfrə dəyişənləri və öz xalqını həlak yurduna sürükləyənləri görmürsənmi?

**İBRAHİM, 34:** O sizə istədiyiniz hər şeydən vermişdir. Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım, çox nankordur.

**NƏHL, 53:** Sizə verilən nemətlərin hamısı Allahdandır. Sonra sizə bəla gəldiyi zaman ancaq Ona yalvarırsınız.

**NƏHL, 54:** Bəlanı sizdən sovuşdurduqdan sonra sizlərdən bəziləri Rəbbinə şərik qoşur.

**NƏHL, 55:** Onlar Bizim onlara verdiyimiz nemətlərə nankorluq etsinlər deyə belə edirlər. Hələlik əylənin! Tezliklə biləcəksiniz.

**NƏHL, 72:** Allah sizin üçün özünüzdən zövcələr yaratdı, zövcələrinizdən də sizin üçün övladlar və nəvələr yaratdı və sizə pak ruzilər verdi. İndi onlar batilə inanıb Allahın nemətini inkarmı edirlər?

**NƏHL, 112:** Allah təhlükəsizlik və əmin-amanlıq içində olan bir diyarı (Məkkəni) misal çəkir. Ona öz ruzisi hər yerdən bol-bol gəlirdi. Lakin o diyarın əhalisi Allahın nemətlərinə nankorluq etdi, Allah da onları etdikləri əməllərə görə aclıq və qorxu libasına bürüdü.

**İSRA, 26:** Qohum-əqrəbaya da, yoxsula da, müsafirə də haqqını ver. Lakin malını lazım olmayan yerə sərf etmə.

**İSRA, 27:** Həqiqətən, israfçılar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur.

**İSRA, 67:** Sizə dənizdə bir fəlakət üz verdiyi zaman Ondan başqa tapındıqlarınız sizdən uzaqlaşar. O sizi xilas edib quruya çıxartdıqda isə üz döndərirsiniz. Həqiqətən, insan nankordur!

**HƏCC, 38:** Şübhəsiz ki, Allah iman gətirənləri mühafizə edir. Həqiqətən, Allah heç bir nankor xaini sevmir.

**HƏCC, 66:** Sizə həyat verən, sonra öldürəcək, daha sonra dirildəcək məhz Odur. İnsan, həqiqətən də, nankordur.

**FURQAN, 48:** Küləkləri Öz mərhəməti önündə yağışdan qabaq müjdəçi olaraq göndərən Odur. Biz göydən tərtəmiz su endirdik ki,

**FURQAN, 49:** onunla ölü bir diyarı canlandıraq, yaratdığımız neçə-neçə heyvanlara və neçə-neçə insanlara ondan içirdək.

**FURQAN, 50:** Biz düşünüb ibrət alsınlar deyə o suyu onların arasında paylaşdırdıq. Lakin insanların çoxu küfrdən başqa bir şey qəbul etmədilər.

**NƏML, 40:** Kitabdan xəbəri olan bir başqa kimsə isə belə dedi: “Mən onu sənə bir göz qırpımında gətirərəm!” Süleyman taxtı yanında hazır durmuş görən kimi dedi: “Bu, Rəbbimin lütfündəndir ki, məni sınağa çəksin, görək şükür edəcəyəm, yoxsa nankor olacağam! Kim şükür etsə, ancaq öz xeyrinə şükür etmiş olar, kim də nankor olsa, bilsin ki, həqiqətən, Rəbbim onun şükrünə möhtac deyildir, Səxavətlidir!”

**QASAS, 58:** Biz xoş güzəranı ilə qürrələnən neçə-neçə şəhəri məhv etdik. Budur onların yurdları. Özlərindən sonra bəzilərindən başqa orada heç kəs sakin olmadı. Onlara Biz varis olduq.

**ƏNKƏBUT, 65:** Onlar gəmiyə mindikləri zaman, dini yalnız Allaha məxsus edərək, Ona yalvarırlar. Allah onları xilas edib quruya çıxaran kimi, yenə də Ona şərik qoşurlar.

**ƏNKƏBUT, 66:** Bu ona görədir ki, Bizim onlara verdiyimiz nemətlərə nankorluq etsinlər və hələlik əylənsinlər. Amma tezliklə biləcəklər.

**RUM, 33:** İnsanların başına bir bəla gəldiyi zaman Rəbbinə üz tutub Ona yalvarırlar. Sonra O, Özündən onlara bir mərhəmət daddıran kimi, onlardan bir dəstə Rəbbinə şərik qoşur.

**RUM, 34:** Bu ona görədir ki, Bizim onlara verdiyimiz nemətlərə nankorluq etsinlər. Hələlik əylənin! Tezliklə biləcəksiniz.

**RUM, 50:** Sən Allahın mərhəmətinin izlərinə bax ki, yeri öldükdən sonra necə dirildir. Şübhəsiz ki, O, ölüləri də mütləq dirildəcəkdir. O, hər şeyə qadirdir.

**RUM, 51:** Əgər Biz bir külək göndərsək və onlar əkini saralmış görsələr, bundan sonra mütləq nankorluq etməyə başlayarlar.

**LUQMAN, 12:** Biz Loğmana hikmət verdik: "Allaha şükür et! Kim şükür etsə, özü üçün şükür etmiş olar. Kim nankor olsa, bilsin ki, Allah onun şükrünə möhtac deyildir, Tərifəlayiqdir".

**LUQMAN, 32:** Dağların saldığı kölgələr kimi dalğalar onları çulğadığı zaman onlar dini məhz Allaha məxsus edərək Ona yalvararlar. Allah onları xilas edib quruya çıxartdıqda isə aralarından bəziləri küfrlə iman arasında orta yol tutar. Bizim ayələrimizi yalnız nankor xainlər inkar edərlər.

**SƏBA, 33:** Zəiflər özləri haqda yüksək rəydə olanlara deyərlər: "Xeyr! İşiniz gecə-gündüz hiylə qurmaq idi. Siz bizə Allahı inkar etməyi və Ona şəriklər qoşmağı əmr edirdiniz". Onlar əzabı gördükdə peşmançılıq hissini gizlədərlər. Kafirlərin boyunlarına zəncirlər vurarıq. Onlar ancaq etdikləri əməllərə görə cəzalandırılarlar.

**FATİR, 36:** Kafirləri isə Cəhənnəm odu gözləyir. Orada nə öldürülməzlər ki, ölüb canları qurtarsın, nə də bu odun əzabı onlar üçün yüngülləşdirilər. Biz hər bir kafiri belə cəzalandırırıq.

**ZUMƏR, 3:** Doğrusu, əsl din ancaq Allaha məxsusdur. Allahı qoyub başqalarını özlərinə dost tutanlar: "Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik"– deyirlər. Əlbəttə ki, Allah ziddiyyətə düşdükləri şeylər barəsində onların arasında Öz hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah yalançı və kafirləri doğru yola yönəltməz.

**MUMİN, 42:** Siz məni Allahı inkar etməyə, bilmədiyim bir şeyi Ona şərik qoşmağa çağırırsınız, mən isə sizi Qüdrətli və Bağışlayan Allaha çağırıram.

**ŞURA, 48:** Əgər üzlərini çevirsələr, unutma ki, Biz səni onlara nəzarətçi təyin etməmişik. Sənin vəzifən ancaq təbliğ etməkdir. Biz insana Öz mərhəmətimizdən daddırdıqda ona sevinir. Onlara öz əlləri ilə etdikləri əməllərin ucbatından bir bədbəxtlik üz verdikdə isə insanın nankor olduğunu görərsən.

**ZUXRUF, 15:** Müşriklər Allahın qullarından bəzisini Onun bir hissəsi qəbul etdilər (Ona övladlar və şəriklər qoşdular). Həqiqətən, insan açıq-aydın nankordur.

**ZUXRUF, 16:** Yoxsa Allah yaratdıqlarından qızları Özünə götürüb oğlanları sizin üçün seçmişdir?

**İNSAN, 2:** İnsanı qarışdırılmış nütfədən yaradaraq onu sınaqdan keçirmək məqsədilə eşidən və görən etdik.

**İNSAN, 3:** Şübhəsiz ki, Biz ona yol göstərdik! Fərqi yoxdur, ya şükür etsin, ya da naşükür olsun.

**İNSAN, 24:** Belə ki, Rəbbinin qərar verəcəyinə qədər səbir et və onlardan heç bir günahkara və ya nankora itaət etmə!

**ƏBƏSƏ, 17:** Qoy ölsün kafir insan! O necə də nankordur!

**ƏBƏSƏ, 18:** Qoy baxıb görsün Allah onu nədən yaradıb?

**ƏBƏSƏ, 19:** Allah onu nütfədən yaratdı və müəyyən şəkildə formalaşdırdı.

**ƏBƏSƏ, 20:** Sonra da onun yolunu asanlaşdırdı.

**ƏBƏSƏ, 21:** Sonra onu öldürüb qəbirə yerləşdirdi.

**ƏBƏSƏ, 22:** İstədiyi bir zaman onu dirildəcəkdir.

**ƏBƏSƏ, 23:** Xeyr! O, hələ də Allahın ona buyurduğunu yerinə yetirməmişdir.

**ADİYAT, 6:** Həqiqətən, insan Rəbbinə qarşı yaman nankordur.

## Bənzərsiz Planet: Yer

Bir insanın həyatı üçün nələr lazım olduğunu düşünün. Su, Günəş, oksigen, atmosfer, bitkilər, heyvanlar... Hal-hazırda ağlınıza gələn və gəlməyən hər cür detal, hər cür şərt Yerdə təbii şəkildə mövcuddur. Həm də sizin ağlınıza gələnlər Yerdə canlı həyatının mövcud olması üçün təmin edilmiş şərtlərdən bir neçə səthi detal olacaq. Ancaq bir az da dərindən nəzərdən keçirdikdə, bütün həyati ehtiyacların çox sayda bir-birinə bağlı detalı olduğu məlum olar. Bu detalların da hər biri Yerdə tam halda mövcuddur. Yerdəki hər şey- canlılar, göy üzü, dənizlər ən gözəl halda və tam şəkildə insanın həyatı üçün əlverişli şəkildə yaradılmışdır. Yerlə birlikdə Günəş sistemində başqa planetlər də var, ancaq onların arasında canlıların həyatına uyğun olan tək planet Yerdir. Yerin Günəşdən məsafəsi, öz oxu ətrafında fırlanma sürəti, oxunun mailliyi, yer üzü formalarının varlığı kimi bir-birindən asılı olmayan bir çox amil planetimizin həyata uyğun şəkildə isinməsini və temperaturun Yerə bərabər şəkildə yayılmasını təmin edir. Yerin atmosferinin quruluşu, Yerin ölçüsü də lazımi qədərdir. Günəşdən bizə gələn işıq, içdiyimiz su, yediyimiz qidalar bizim həyatımız üçün son dərəcə uyğundur.



Qısaca desək, Yerlə bağlı apardığımız hər cür tədqiqat bizə Yerin insan həyatı üçün xüsusi nizamlandığnı göstərəcək. Günəş sistemindəki digər planetlər arasında Yerə ən yaxın xüsusiyyətlərə malik olan Mars belə Yer ilə müqayisə edilməz dərəcədə quru və ölü qaya yığınıdır. Yerdəki həyata uyğun şərtlərin xüsusi nizamlandığını görmək üçün digər planetlərin ümumi quruluşuna nzəər salmaq kifayətdir. Haqqında tez-tez bəhs edilən planetlərdən biri olan Marsı nəzərdən keçirək. Marsın atmosferi çox karbondioksid ehtiva edən zəhərli qarışıqdır. Planetdə heç su yoxdur. Planetdə çox güclü küləklər və aylarla davam edən qum fırtınaları hökm sürür. Temperatur -53 dərəcəyə yaxındır. Mars bu xüsusiyyətlərilə canlı həaytın mümkün olmadığı, tamamilə ölü planetdir. Bu müqayisə belə Yeri həyat üçün əlverişli edən xüsusiyyətlərin nə qədər böyük nemət olduğunu anlamaq üçün kifayətdir.

Bütün kainatı, ulduzları, planetləri, dağları və dənizləri qüsursuz şəkildə yaradan, insana və bütün canlılara həyat verən, hər şeyi yoxdan var etməyə gücü çatan, yaratdıqlarını insanın əmrinə verən, sonsuz güc və qüdrət sahibi olan Allahdır. Yaşadığı Yerdəki ehtişamlı quruluşu görən hər insana düşən dərhal Allaha yönəlmək, bütün həyatı boyu Allahın rizasına uyğun davranmaq, Onun yaratdıqlarına, verdiyi nemətlərə görə şükür etmək, bütün bu gözəllikləri verən Allaha yaxın olmaq, Onu dost və vəkil etməkdir. Bütün bunların sahibi olan Allah həmdə layiq olandır.

## Atmosferin Xüsusi Quruluşu

Nəfəs almaq sizin üçün sadəcə havanı içinizə çəkmək və sonra nəfəs verərək çölə buraxmaqdan ibarət ola bilər, ancaq əslində bu proses üçün hərtərəfli qüsursuz nizam qurulmuşdur. Belə ki, insanın nəfəs almaq üçün ən kiçik səy göstərməsinə belə gərək yoxdur. Hətta bu mövzu çoxunun ağlına da gəlmir. Hər insan doğulduğu andan ölənə qədər heç dayanmadan nəfəs alır. Çünki həm əhatəsindəki, həm də öz bədənindəki bütün şərtləri Allah rahat nəfəs alacağı

şəkildə yaratmışdır.




Hər şeydən əvvəl insanın nəfəs ala bilməsi üçün atmosferdəki qazların tarazlığının çox yaxşı nizamlanması şərtdir. Bu tarazlıqda kiçik dəyişikliklərin meydana gəlməsi insanın ölümünə səbəb olan təhlükəli nəticələr doğurar. Onsuz da bu cür çatışmazlıqlar heç vaxt baş verməz. Çünki atmosfer həyat üçün lazımlı son dərəcə xüsusi şərtlər birləşdirilərək nizamlanmış qeyri-adi tərkibdir və qüsursuz işləyir.

Yerin atmosferi 77% azot, 21% oksigen və 1% karbondioksid və arqon kimi digər qazların qarışığından ibarətdir. Əvvəlcə bu qazların ən əhəmiyyətlisi ilə, yəni oksigenlə başlayaq. Oksigen çox əhəmiyyətlidir, çünki canlıların enerji əldə etmək üçün oksigenə ehtiyacı var. Oksigen əldə etmək üçün də nəfəs alırlar. Nəfəs aldığımız havadakı oksigen nisbəti isə son dərəcə həssas şəkildə nizamlanmışdır.

Atmosferdəki oksigen nisbətinin taraz qalması da mükəmməl "geri qaytarma" sistemi sayəsində baş verir. İnsanlar və heyvanlar davamlı şəkildə oksigen sərf edirlər və onlar üçün zəhərli olan karbondioksidi xaric edirlər. Bitkilər isə bu prosesin tam əksini həyata keçirir və karbondioksidi oksigenə çevirərək həyatın davam etməsini təmin edirlər. Hər gün bitkilər tərəfindən milyardlarla ton oksigen bu şəkildə əmələ gətirilərək atmosferə xaric edilir.




Əgər bitkilər də insanlar və heyvanlarla eyni reaksiyanı həyata keçirsəydilər, Yer çox qısa müddətdə həyat üçün əlverişsiz planetə çevrilərdi. Məsələn, həm heyvanlar, həm də bitkilər oksigen xaric etsəydilər, atmosfer qısa müddətdə "yanıcı" xüsusiyyət qazanar və ən kiçik qığılcım böyük yanğınlar törədərdi. Nəticədə Yer böyük partlayışla yanaraq məhv olardı. Digər tərəfdən əgər həm bitkilər, həm də heyvanlar karbondioksid xaric etsəydilər, bu dəfə atmosferdəki oksigen sürətlə tükənər və bir müddətdən sonra canlılar nəfəs almalarına baxmayaraq "boğularaq" kütləvi şəkildə ölərdilər.

Bütün bunlar Yerin atmosferinin insan həyatı üçün xüsusi şəkildə Allah tərəfindən yaradıldığnı göstərir. Kainat nəzarətsiz deyil. Hər detalı ilə planlaşdırılmış və üstün güc sahibi olan Allah tərəfindən yaradılmışdır.

## Dağların Yer Qabığını Möhkəmləndirmə Xüsusiyyəti

Hal-hazırda üstündə yeridiyiniz, etibarla evlərinizi tikdiyiniz yer qabığı əslində özündən daha qalın olan və "mantiya" adlandırılan təbəqə üzərində də sanki üzürmüş kimi hərəkət edir. Əgər bu hərəkəti nəzarət altında saxlayan bir sistem olmasaydı, yer üzündə daima

sarsıntılar, zəlzələlər olardı və Yer həyat üçün uyğun olmazdı. Ancaq dağlar və dağların yerin altındakı uzantıları yerin hərəkətlərini, dolayısı ilə, sarsıntıları olduqca azaldır.

Dağlar yer qabığını əmələ gətirən çox böyük təbəqələrin hərəkətləri və toqquşmaları nəticəsində əmələ gəlir. Hərəkət edən iki təbəqə toqquşduğu zaman daha davamlı olanı digərinin altına girir. Yuxarıda qalan təbəqə qıvrılaraq yüksəlir və dağları əmələ gətirir. Altda qalan təbəqə isə yerin altında irəliləyərək aşağıya doğru dərin uzantı əmələ gətirir. Yəni dağların yer üzündə gördüyümüz hissəsi qədər yerin altına doğru irəliləyən dərin uzantıları da var. Yəni dağlar mantiya adlanan təbəqəyə dərinliyə doğru kök salmışlar.




Bu xüsusiyyətləri sayəsində dağlar yerin təbəqələrinin birləşmə nöqtələrində yerin üstünə və altına doğru uzanaraq bu təbəqələri bir-birinə bərkidirlər. Bu şəkildə yer qabığını möhkəmləndirərək maqma təbəqəsi üstündə və ya öz təbəqələri arasında sürüşməsinə mane olurlar. Dağların bu bərkitmə xüsusiyyəti son dərəcə hərəkətli quruluşa malik olan yer qabığını sanki sabitləşdirərək sarsıntıların böyük ölçüdə qarşısını alırlar.

Son dərəcə ehtişamlı görünüşə malik olan dağların varlığı yer üzündəki digər tarazlıqların təmin edilməsi baxımından da son dərəcə vacibdir. Xüsusilə, temperaturun bərabər paylanmasında dağlar mühüm faktordur.

Yerin ekvatoru ilə qütbləri arasında təxminən 100 °C-lik temperatur fərqi var. Əgər belə bir temperatur fərqi çox kələ-kötürlüyü olmayan bir səthdə olsaydı, sürəti saatda 1000 km-ə çatan fırtınalar Yerin altını üstünə çevirərdilər. Lakin yer üzündə temperatur fərqinə görə ortaya çıxacaq güclü hava axınlarının qarşısını alan kələ-kötürlüklər var. Bu kələ-kötürlüklər, yəni sıra dağlar, Çində Himalaylarla başlayır, Anadoluda Tauruslarla davam edir və Avropada Alp dağlarına qədər sıra dağlar şəklində uzanaraq qərbdə Atlantik okeanı, şərqdə Sakit okeanla birləşirlər.

Yer üzündəki bütün detallarda olduğu kimi dağlarda da təzahür edən Allahın sonsuz sənətidir. Yaşadığımız Yeri bizim üçün qüsursuz şəkildə Allah yaratmışdır. İnsanın üzərinə düşən isə dünyadakı bu ehtişamlı sənəti görərək Allaha qulluq etməyi həyatının ən mühüm həqiqəti kimi qəbul etmək və sadəcə bunun üçün səy göstərməkdir.Çünki insan saysız-hesabsız nemətə möhtacdır, amma Allah heç bir şeyə ehtiyacı olmayandır.

## Okeanların Təmin Etdiyi Tarazlıqlar

Yağışlar, dənizlər, çaylar, okeanlar, kranı açdıqda axan içməli su... İnsanlar suyun varlığına o qədər adət ediblər ki, yer üzünün böyük hissəsinin sularla örtülü olmasının əhəmiyyətini bəlkə heç düşünmürlər. Ancaq məlum olan bütün göy cisimlərinin arasında yalnız Yerdə suyun olması, üstəlik bu suların içməli olması son dərəcə mühüm məsələdir.

Günəş sistemindəki digər 63 göy cismindən heç birində həyatın əsas şərti olan su yoxdur. Lakin Yer səthinin dörddə üç hissəsi sudur. Okeanlar kimi böyük su kütlələrilə bərabər çaylar, kiçik göllər kimi ölçüləri və xüsusiyyətləri bir-birindən fərqli olan sular var. Bütün sular duzlu və ya bütün sular şirin deyil.

Yerdə bütün canlıların ehtiyaclarına görə nizamlanmış qüsursuz su tarazlığı var.




Yer üzündəki milyonlarla növ canlı su sayəsində həyatlarını davam etdirir, həyat üçün lazımlı tarazlıqlar da suyun varlığı sayəsində davamlılıqlarını qoruyurlar. Məsələn, böyük su kütlələrindəki buxarlanma sayəsində buludlar və yağışlar əmələ gəlir. Suyun temperaturu çəkmə və saxlama qabiliyyəti çoxdur. Bu sayədə okeanlardakı və dənizlərdəki böyük su kütlələri Yerin temperaturunun tarazlanmasını təmin edir. Bu səbəbdən dənizə yaxın ərazilərdə gecə ilə gündüz arasındakı temperatur fərqi çox azdır. Bu da bu əraziləri həyat üçün daha əlverişli edir.

Okeanların varlığı son dərəcə mühümdür. Çünki okeanlar günəş şüalarını qurudan daha az əks etdirir, beləliklə quruya nisbətən daha çox günəş enerjisi alır, amma bu temperaturu öz içində quruya nisbətən daha bərabər şəkildə paylayırlar. Bu sayədə okeanlar daha isti olan ekvator bölgələrini sərinlədərək həddindən artıq isinmələrinin, qütb bölgələrinin soyuq sularını da isidərək həddindən artıq soyuq olmalarını və bunun nəticəsində tamamilə donmalarının qarşısını alırlar. Bundan əlavə, okeanlar karbondioksidin ayrıldığı kimyəvi baza kimidir.

Suyun şəffaflığı sayəsində su yosunları okean səthinin altında fotosintez prosesini həyata keçirə bilirlər. Su donduqda genişlənən çox az sayda maddədən biridir, onun bu xüsusiyyəti sayəsində okeanlar və göllər altdan yuxarıya doğru donmur.

Burada yalnız bir neçə nümunə verilmiş suyun bütün fiziki və kimyəvi xüsusiyyətləri, bu mayenin insan həyatı üçün xüsusi yaradıldığını göstərir. Başqa heç bir planetdə belə su kütləsinin olmaması, sadəcə Yerdə olması, əlbəttə, bir təsadüf deyil.



İnsan həyatı üçün xüsusi yaradılmış, Yer üçün xüsusi yaradılmış su ilə həyat verilmişdir. Qulları üçün saysız -hesabsız nemətlər yaradan, onların rahat yaşamalarını təmin edən Allah suyu da bənzərsiz sənət və incəliklə var etmişdir.

**Göydən sizin üçün yağmur endirən Odur...** (Nəhl surəsi, 10)

# Allaha Nələri Şərik Qoşdular?

**TƏVBƏ, 30:** Yəhudilər: "Üzeyr Allahın oğludur"– dedilər. Xaçpərəstlər də: "Məsih Allahın oğludur"– dedilər. Bu onların ağızlarından çıxan sözlərdir. Bu, daha əvvəlki kafirlərin sözlərinə oxşayır. Allah onları məhv etsin! Gör necə də haqdan döndərilirlər!



**TƏVBƏ, 31:** Onlar Allahı qoyub baş keşişlərini və rahiblərini, bir də Məryəm oğlu İsanı tanrılar qəbul etdilər. Halbuki onlara ancaq tək olan İlaha ibadət etmək əmr olunmuşdu. Ondan başqa məbud yoxdur. O, bunların şərik qoşduqları şeylərdən uzaqdır.

**ZUXRUF, 19:** Onlar Mərhəmətli Allahın qulları olan mələkləri qız hesab etdilər. Məgər onlar mələklərin yaradılışının şahidi olublar? Onların bu şahidliyi yazılacaq və buna görə cavab verməli olacaqlar.

**ZUXRUF, 20:** Onlar dedilər: "Əgər Mərhəmətli Allah istəsəydi, biz onlara ibadət etməzdik!" Onların bu haqda heç bir biliyi yoxdur. Onlar ancaq yalan danışarlar.

**KƏHF, 102:** Olmaya, kafirlər Məni qoyub qullarımı özlərinə dost tutacaqlarını güman edirdilər? Həqiqətən, Biz Cəhənnəmi kafirlər üçün mənzil hazırlamışıq.

**ALİ-İMRAN, 64:** De: "Ey Kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək". Əgər onlar üz döndərsələr, deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!"

**ALİ-İMRAN, 151:** Gücsüz və iqtidarsız şəxsləri Allaha ortaq qoşduqlarına görə, inkar edənlərin qəlblərinə qorxu salacağıq. Yerləri atəşdir. Zalımların dayanacağı yer necə də pisdir!

**NİSA, 171:** Kitablılar! Dininizdə həddi aşmayın. Allah haqqında yalnız gerçəyi söyləyin. Məryəm oğlu İsa Məsih, sadəcə Allahın elçisi və Məryəmə göndərdiyi kəlməsi və Ondan gələn bir candır. Allaha və elçilərinə iman edin. "Üçdür!" deməyin. Öz xeyriniz üçün buna son verin. Tək tanrı yalnız Allahdır! O, övlad sahibi olmaqdan ucadır. Göylərdə və yerdə nə varsa, Onundur. Vəkil olaraq Allah yetər.

**ƏNAM, 74:** Bir zaman İbrahim atası Azərə demişdi: "Sən bütləri məbudlarmı qəbul edirsən? Mən səni və sənin qövmünü açıq -aydın azğınlıq içində görürəm".



**ƏNAM, 75:** Beləcə, Biz, İbrahimə göylərin və yerin səltənətini göstərdik ki, yəqinliklə inananlardan olsun.

**ƏNAM, 76:** Gecənin qaranlığı onu bürüdükdə o, ulduz görüb: "Bu mənim Rəbbimdir!"– dedi. O batdıqda isə: "Mən batanları sevmirəm!"– dedi.

**ƏNAM, 77:** Doğan ayı gördükdə: "Bu

mənim Rəbbimdir!”– dedi. O batdıqda isə: “Əgər Rəbbim məni doğru yola yönəltməsəydi, mən azmış adamlardan olardım”– dedi.

**ƏNAM, 78:** Doğan günəşi gördükdə: “Bu mənim Rəbbimdir, bu daha böyükdür!”– dedi. O batdıqda isə dedi: “Ey qövmüm! Həqiqətən, mən sizin Allaha şərik qoşduqlarınızdan uzağam!

**ƏNAM, 79:** Doğrudan da mən, hənif olaraq üzümü göyləri və yeri yaradana çevirdim. Mən müşriklərdən deyiləm”.

**ƏNAM, 80:** Qövmü onunla höcətləşdi. O dedi: “Allah məni doğru yola yönəltdiyi halda, siz Onun barəsində mənimlə höcətləşirsiniz? Rəbbimin istədiyi şeylərdən başqa mən, sizin Ona şərik qoşduqlarınızdan qorxmuram. Rəbbim elmi ilə hər şeyi əhatə etmişdir. Məgər düşünüb ibrət almayacaqsınız?

**ƏNAM, 81:** Siz, Allahın sizə, haqqında heç bir dəlil nazil etmədiyi şeyləri (bütləri) Ona şərik qoşmaqdan qorxmursunuzsa, mən sizin şərik qoşduqlarınızdan necə qorxa bilərəm? Əgər bilirsinizsə, deyin görüm iki dəstədən hansı əmin-amanlıqda olmağa daha haqlıdır?”

**ƏNAM, 100:** Onlar cinləri Allaha şərik qoşdular. Halbuki onları da Allah yaratmışdır. Onlar Allah haqqında bir şey bilmədən Onun üçün özlərindən oğullar və qızlar uydurdular. Allah onların uydurduqları sifətlərdən uzaqdır və ucadır.



**ƏRAF, 191:** Onlar heç bir şey yaratmayan, özləri xəlq edilmiş olan şeyləri Allaha şərik qoşurlar?

**ƏRAF, 192:** Bütlər nə onlara yardım edə bilər, nə də özlərinə kömək edə bilərlər.

**ƏRAF, 193:** Siz onları doğru yola çağırsanız, sizin ardınızca gəlməzlər. Onları çağırsanız da, sussanız da sizin üçün fərqi yoxdur.

**ƏRAF, 194:** Allahdan savayı çağırdıqlarınız da sizin kimi qullardır. Əgər doğru deyirsinizsə, çağırın onları, sizə cavab versinlər.



**ƏRAF, 195:** Məgər onların ayaqlarımı var, onunla yerisinlər? Yoxsa onların əllərimi var, onunla tutsunlar? Yoxsa onların gözlərimi var, onunla görsünlər? Yoxsa onların qulaqlarımı var, onunla eşitsinlər? De: “Çağırın şəriklərinizi! Sonra mənə qarşı hiylə qurun və mənə heç möhlət də verməyin!

**NƏHL, 98:** Quran oxuduqda qovulmuş şeytandan Allaha sığın!

**NƏHL, 99:** Şübhəsiz ki, şeytanın, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlər üzərində heç bir hökmranlığı yoxdur.

**NƏHL, 100:** Onun hakimiyyəti yalnız onu özünə dost tutanlar və Allaha şərik qoşanlar üzərindədir.

**ƏNBİYA, 52:** Bir zaman o öz atasına və tayfasına: “Bu nə heykəllərdir ki, siz onlara sitayiş edirsiniz?”– demişdi.



**ƏNBİYA, 53:** Onlar: “Biz atalarımızı onlara ibadət edən görmüşük!”– demişdilər.

**ƏNBİYA, 54:** İbrahim demişdi: “Doğrusu, siz də, atalarınız da, açıq - aydın bir

azğınlıq içindəsiniz”.

**ƏNBİYA, 55:** Onlar: “Sən bizə haqq gətirmisən, yoxsa oyunbazlardansan?”– demişdilər.

**ƏNBİYA, 56:** İbrahim demişdi: “Xeyr, sizin Rəbbiniz, yaratdığı göylərin də, yerin də Rəbbidir. Mən də buna şahidlik edənlərdənəm.

**ƏNBİYA, 57:** Allaha and olsun ki, siz geriyə dönüb getdikdən sonra bütlərinizə bir kələk gələcəyəm!”

**ƏNBİYA, 58:** Nəhayət İbrahim bütləri sındırıb qırıq-qırıq edərək yalnız onların ən irisini saxladı ki, bəlkə, ona müraciət edələr.

**ƏNBİYA, 59:** Onlar dedilər: “Məbudlarımızı kim bu kökə salıb? Şübhəsiz ki, o, zalımlardandır!”

**ƏNBİYA, 60:** Bəziləri: “İbrahim deyilən bir gəncin onları pislədiyini eşitmişik”– dedilər.

**ƏNBİYA, 61:** Digərləri də: “Onu camaatın gözü qabağına gətirin ki, şahidlik etsinlər”– dedilər.

**ƏNBİYA, 62:** Onlar dedilər: “Məbudlarımızı sənmi bu kökə saldın, ey İbrahim?”

**ƏNBİYA, 63:** İbrahim dedi: “Xeyr, bunu onların bu böyüyü etmiş olar. Əgər danışa bilirlərsə, özlərindən soruşun”.

**ƏNBİYA, 64:** Onlar öz-özlərinə müraciətlə: “Həqiqətən də, siz zalımlarsınız”– dedilər.

**ƏNBİYA, 65:** Sonra yenə öz bildikləri batil əqidələrinə qayıdıb dedilər: “Axı sən bilirsən ki, bunlar danışmırlar”.

**ƏNBİYA, 66:** İbrahim dedi: “Elə isə Allahı qoyub sizə heç bir fayda və zərər verə bilməyən bütlərəmi tapınırsınız?

**ƏNBİYA, 67:** Tfu sizə də, Allahdan başqa tapındıqlarınıza da! Doğurdandamı, siz dərk etmirsiniz?”

**ƏNBİYA, 68:** Onlar dedilər: “Əgər ondan əvəz çıxmaq istəyirsinizsə, onu yandırın ki, məbudlarınıza kömək edəsiniz”.

**NƏML, 23:** Mən onlara padşahlıq edən, özünə hər şey verilmiş və çox böyük bir taxtı olan bir qadın gördüm.

**NƏML, 24:** Mən onun və tayfasının Allahı qoyub günəşə səcdə etdiklərinin şahidi oldum. Şeytan onların əməllərini özlərinə gözəl göstərmiş və onları haqq yoldan çıxartdığına görə haqqın yolunu tapa bilmirlər.

**NƏML, 25:** Şeytan ona görə belə etmişdir ki, göylərdə və yerdə gizli olanı aşkara çıxardan, sizin gizlətdiklərinizi də, üzə çıxartdıqlarınızı da Bilən Allaha səcdə etməsinlər.

**SƏBA, 40:** O gün Allah onların hamısını toplayacaq, sonra da mələklərə buyuracaq: “Bunlar sizəmi ibadət edirdilər?”

**SƏBA, 41:** Mələklər deyəcəklər: “Sən paksan, müqəddəssən! Onlar deyil, Sənsən bizim Hamimiz! Xeyr, onlar cinlərə ibadət edirdilər. Əksəriyyəti də məhz onlara iman gətirmişdi”.

**ZUMƏR, 3:** Doğrusu, əsl din ancaq Allaha məxsusdur. Allahı qoyub başqalarını özlərinə dost tutanlar: “Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik”– deyirlər. Əlbəttə ki, Allah ziddiyyətə düşdükləri şeylər barəsində onların arasında Öz hökmünü verəcəkdir. Şübhəsiz ki, Allah yalançı və kafirləri doğru yola yönəltməz.

**NUH, 23:** və özlərinə tabe olanlara dedilər: “Öz məbudlarınızı tərk etməyin; Vəddi, Suvaı, Yəğusu, Yəuqu və Nəsri tərk etməyin!”

## Allah İman Edənləri Qaranlıqlardan Aydınlığa Çıxarar?

**MAİDƏ, 15:** Ey Kitab əhli! Kitabın gizlədiyiniz bir çox bölümünü açıqlayan və bir çoxunu da üzünüzə vurmayan elçimiz gəldi sizə. Allahdan bir nur və açıq-aşkar bir kitab da gəldi sizə.

**MAİDƏ, 16:** Onunla Allah, rizasını arayan şəxsləri barış və hüzur yollarına yönəldir. İzniylə onları qaranlıqlardan aydınlığa çıxararaq onları ən doğru yola yönəldir.

**İBRAHİM, 1:** Əlif. Ləm. Ra. Bu, insanları öz Rəbbinin izni ilə qaranlıqdan nura – Qüdrətli, Tərifəlayiq Allahın yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir

Kitabdır.



**İBRAHİM, 2:** O Allahın ki, göylərdə və yerdə nə varsa, Onundur. Giriftar olacaqları şiddətli əzabdan dolayı vay kafirlərin halına!

**ƏHZAB, 43:** Sizi zülmətlərdən nura çıxartmaq üçün sizə rəhm edən Odur. Onun mələkləri də sizin üçün bağışlanma diləyərlər. Allah möminlərə qarşı Rəhmlidir.

**ŞURA, 52:** Biz sənə Öz əmrimizdən olan ruhu (Quranı) vəhy etdik. Sən kitab nədir, iman nədir bilmirdin. Lakin Biz onu, qullarımızdan istədiyimizi doğru yola yönəltmək üçün, bir nur etdik. Həqiqətən, sən onları doğru yola yönəldirsən –

**HƏDİD, 9:** Sizi zülmətlərdən nura çıxartmaq üçün Öz quluna açıq-aydın ayələri nazil edən Odur. Həqiqətən, Allah sizə Şəfqətlidir, Rəhmlidir.

**TALAQ, 11:** və iman gətirib yaxşı işlər görənləri zülmətlərdən nura çıxartmaq üçün Allahın aydın ayələrini sizə oxuyan bir elçi göndərmişdir. Hər kəs Allaha iman gətirib saleh əməl işləsə, Allah onu içində əbədi qalacağı, ağacları altından çaylar axan Cənnət bağlarına daxil edər. Allah ona gözəl ruzi nəsib etmişdir.

**BƏQƏRƏ, 257:** Allah iman edənlərin Vəlisi və Dostudur; onları qaranlıqlardan aydınlığa çıxarır. İnkar edənlərin dostları isə azğın kəslərdir; onları aydınlıqdan qaranlığa çıxarırlar. Onlar Od sakinləridirlər və orada əbədi qalacaqlar.

**ƏNAM , 122:** Məgər ölü ikən diriltdiyimiz və özünə də insanlar arasında gəzmək üçün nur verdiyimiz şəxs qaranlıqlar içində qalıb oradan çıxa bilməyən kəs kimi ola bilərmi? Kafirlərə gördükləri işlər beləcə gözəlləşdirildi.

**ƏRAF, 203:** Sən onlara möcüzə gətirmədiyin zaman: “Nə olardı ki, onu da özündən uyduraydın?”– deyərlər. De: “Mən yalnız Rəbbimdən mənə vəhy olunanlara tabe oluram. Bunlar Rəbbinizdən gələn aşkar dəlillər, iman gətirən bir qövm üçün doğru yolu göstərən rəhbər və mərhəmətdir”.

**ƏRAF, 157:** O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin, ardınca gedərlər. O peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun (Quranın) ardınca gedənlər isə nicat tapanlardır”.

**ZUMƏR, 22:** Məgər Allahın, köksünü İslam üçün açdığı və Rəbbinin nura yönəltdiyi şəxs kafirlə eyni ola bilərmi? Qəlbi Allahın Zikrinə qarşı sərt olanların vay halına! Onlar həqiqətən azğınlıq içindədirlər.

## Allahın Bizə Verdiyi Nemətlər Nələrdir?

**ALİ-İMRAN, 14:** Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının nemətləridir. Halbuki gediləcək ən gözəl yer Allah qatındadır.



**ƏNAM , 46:** De: “Bir deyin görək, əgər

Allah sizin eşitmə və görmə qabiliyyətinizi əlinizdən alsa, qəlblərinizə möhür vursa, Allahdan başqa hansı məbud onları sizə qaytara bilər?" Bax gör, Biz ayələri necə izah edirik, sonra onlar yenə üz çevirirlər.

**NƏHL, 5:** Mal-qaranı da O yaratdı. Onlarda sizin üçün istilik (bədəninizi isti saxlayan yun geyim) və başqa faydalar vardır. Həmçinin onlardan yeyirsiniz.

**NƏHL, 6:** Mal-qaranı axşam tövləyə qaytardıqda, səhər çölə buraxdıqda onlara baxıb fərəhlənirsiniz.



**NƏHL, 7:** Onlar yüklərinizi, özünüzün çətinliklə apara biləcəyiniz bir ölkəyə daşıyırlar. Həqiqətən də, Rəbbiniz Şəfqətlidir, Rəhmlidir.

**NƏHL, 8:** Atları, qatırları və uzunqulaqları sizə həm minik, həm də zinət olsun deyə Allah yaratdı. O, sizin hələ bilmədiyiniz bir çox şeyləri də yaradır.

**MUMİNUN, 18:** Biz göydən lazımi qədər su endirib onu yerdə saxladıq. Şübhəsiz ki, Biz onu yox edə də bilərik.

**MUMİNUN, 19:** Sonra həmin su ilə xurma ağaclarını və üzüm bağlarını sizin üçün yetişdirdik. Sizin üçün orada yediyiniz çoxlu meyvələr vardır.



**MUMİNUN, 20:** Biz Sina dağında bir ağac bitirdik ki, barından yeyənlərə həm yağ, həm də həm şirə verir.

**MUMİNUN, 21:** Həqiqətən, ev heyvanlarında da sizin üçün ibrət var. Biz onların bətnində olandan sizlərə içirdirik. Sizin üçün onlarda başqa faydalar da var. Üstəlik onlardan yeyirsiniz də.

**MUMİNUN, 22:** Siz həm o heyvanlarla, həm də gəmilərlə daşınırsınız.

**FURQAN, 45:** Məgər Rəbbinin kölgəni necə uzatdığını görmürsənmi? Əgər O istəsəydi, onu hərəkətsiz halda saxlayardı. Sonra Biz günəşi onun bələdçisi etdik.

**FURQAN, 46:** Sonra o kölgəni yavaş-yavaş Özümüzə tərəf çəkdik.

**FURQAN, 47:** Sizin üçün gecəni örtük, yuxunu rahatlıq, gündüzü də canlanma vaxtı edən Odur.

**FURQAN, 48:** Külələri Öz mərhəməti önündə yağışdan qabaq müjdəçi olaraq göndərən Odur. Biz göydən tərtəmiz su endirdik ki,

**FURQAN, 49:** onunla ölü bir diyarı canlandıraq, yaratdığımız neçə-neçə heyvanlara və neçə-neçə insanlara ondan içirdək.

**FURQAN, 50:** Biz düşünüb ibrət alsınlar deyə o suyu onların arasında paylaşdırdıq. Lakin insanların çoxu küfrdən başqa bir şey qəbul etmədilər.

**FURQAN, 51:** Əgər istəsəydik, hər kəndə qorxudan bir peyğəmbər göndərərdik.

**FURQAN, 52:** Belə olduqda sən kafirlərə baş əymə və onlara qarşı bununla (bu Quranla) böyük bir cihad et!

**FURQAN, 53:** Birinin suyu dadlı və şirin, digərininki isə duzlu və acı olan iki dənizi qovuşduraraq aralarında maneə və keçilməz sədd qoyan Odur.

**NƏML, 60:** Göyləri və yeri yaradan, sizin üçün göydən yağmur endirən kimdir? Biz onunla gözəl bağçalar saldıq. Halbuki siz onların ağaclarını böyüdə bilməzdiniz. Heç Allahla yanaşı başqa bir məbudmu var? Xeyr, onlar haqdan yayınan adamlardır.

**NƏML, 61:** Yeri məskən edən, arasından çaylar axıdan, üzərində möhkəm duran

dağlar yaradan və iki dənizin arasında maneə qoyan kimdir? Heç Allahla yanaşı başqa bir məbudmu var? Xeyr, onların əksəriyyəti bunu bilmirlər.

**NƏML, 63:** Qurunun və dənizin qaranlıqlarında sizə doğru yol göstərən, külələri Öz mərhəməti önündə yağışdan qabaq müjdəçi kimi göndərən kimdir? Heç Allahla yanaşı başqa bir məbudmu var? Allah onların qoşduqları şəriklərdən ucadır.

**NƏML, 64:** Məxluqatı əvvəldən yaradan, sonra onu yenidən diriləndən, sizə göydən və yerdən ruzi verən kimdir? Heç Allahla yanaşı başqa bir məbudmu var?" De: "Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin".

**QASAS, 71:** De: "Bir deyin görək, əgər Allah gecəni üstünüzdə Qiyamətə qədər uzatsa, Allahdan başqa hansı məbud sizə bir işıq gətirə bilər? Məgər siz eşitmirsiniz?"



**QASAS, 72:** De: "Bir deyin görək, əgər Allah gündüzü üstünüzdə qiyamətə qədər uzatsa, Allahdan başqa hansı məbud dincəldiyiniz gecəni sizə gətirə bilər? Məgər siz görmürsünüz?"

**QASAS, 73:** O, Öz mərhəməti ilə sizin üçün gecəni və gündüzü yaratdı ki, dincələsiniz və Onun lütfündən ruzi axtarasınız. Bəlkə, şükür edəsiniz.

**FATİR, 3:** Ey insanlar! Allahın sizə verdiyi lütfünü bir xatırlayın. Allahdan başqa sizə göylərdən və yerdən ruzi verən bir xaliq varmı? Ondan başqa heç bir məbud yoxdur. Siz necə də haqdan döndərilirsiniz!

**RƏHMAN, 1:** Mərhəmətli Allah

**RƏHMAN, 2:** Quranı öyrətdi.

**RƏHMAN, 3:** İnsanı yaratdı,

**RƏHMAN, 4:** ona danışmağı öyrətdi.

**RƏHMAN, 5:** Günəş və ay müəyyən bir ölçü ilə hərəkət edir.

**RƏHMAN, 10:** O, yeri məxluqat üçün döşədi.

**RƏHMAN, 11:** Orada meyvələr və salxımlı xurma ağacları vardır.

**RƏHMAN, 12:** Həmçinin saçaqlı dənli bitkilər və xoş ətirli çiçəklər də vardır.

**RƏHMAN, 13:** Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?

## Digər Canlıların Yaradılışı

Əlbəttə ki, dünya yalnız insanlardan ibarət deyil. Yer üzündə bildiyiniz və ya bilmədiyiniz minlərlə növ canlı var. Varlığından xəbərdar olduqlarınızın bəzilərini yaxından görərsiniz, amma əksəriyyətini də kitablar və ya filmlər sayəsində tanıyarsınız. Lakin, bu canlılara diqqət yetirsəniz hamısının ortaq bir xüsusiyyəti olduğunu görərsiniz. Bu nədir bilirsinizmi? Bu xüsusiyyətə qısa şəkildə "uyğunluq" deyə bilərik. İndi, sizin üçün dünyadakı canlıların nələrə uyğun olduqlarını sayaq. Canlılar;

- Yaşadıqları mühitə uyğundurlar.
- Yaşadıqları mühitdəki digər canlılarla uyğunluq təşkil edirlər.
- Təbiətin tarazlığını təmin etməyə uyğundurlar.
- İnsana müxtəlif faydalar verməyə uyğundurlar.

Bu bəndləri izah etmədən əvvəl, uyğunluğun nə olduğuna dair sadə bir nümunə verək. İndi, evimizin divarındakı taxıc yuvası və ona taxdığımız taxıcı düşünün. İkisi də bir-birinə uyğundurlar. Uyğun olduğuna necə qərar verərik?



Çünki taxıc yuvasında iki deşik var. Taxıcda isə iki ədəd metal çıxıntı var. Görəsən bu kifayətdirmi? Taxıcın dəmir çubuqlarının qalınlığı tam deşiyin qalınlığı qədərdir. Əgər belə olmasa, ya içinə girməzdi, ya da boş qalıb çıxardı, elə deyilmi? Bununla yanaşı, taxıcın çubuqları arasındakı məsafə ilə taxıc yuvasının deşikləri arasındakı məsafə eynidir. Ölçüləri uyğun gəlməsəydi taxıcı deşiklərə sala bilməzdiniz. Bu da kifayət deyil, taxıc çox uzun olsaydı, yenə uyğun gəlməzdi. Taxıcın çubuqları metal olmasaydı, bu dəfə taxıc yuvasındakı elektrik cərəyanı taxıca keçməzdi. Əgər taxıcın başı plastik materialdan olmasaydı, taxıcdan yapışdığınız vaxt sizi də elektrik vurardı. Gördünüz mü, ən sadə bir materialda belə uyğunluq olmadıqda, onu işlətmək qeyri-mümkün olur. Deməli, taxıc yuvasını və taxıcı əvvəlcə eyni insan planlaşdırmışdır. Bir-birinə uyğun şəkildə düzəltmişdir. İşəyararlı şəkildə düzəltmişdir. Bunlar dəmirin və plastik maddənin təsadüfən birləşməsi nəticəsində meydana gələ bilməz və ayrı-ayrılıqda planlana da bilməzlər. Çünki bu təqdirdə bir-biriylə uyğun bir taxıc və taxıc yuvası tapa bilməzsiniz.

Canlılardakı uyğunluq isə taxıc və taxıc yuvası uyğunluğundan xeyli müfəssəldir. Çünki canlılarda bir-biriylə uyğunlaşması və mükəmməl işləməsi lazım olan yüz minlərlə sistem və orqan var. Bunları tək-tək yazmağa çalışsaq yüzlərlə cild kitab ortaya çıxar. Buna görə də,

Allahın canlılarda yaratdığı bu mükəmməl xüsusiyyətlər barədə sonrakı səhifələrdə qısa şəkildə danışacağıq:

## - Canlılar Yaşadıqları Mühitə Uyğundurlar

Quruda, havada və ya suda yaşamasından asılı olmayaraq, hər canlı yaşadığı mühitə ən uyğun şəkildə yaradılmışdır. Yaşaya bilməsi, qoruna bilməsi, qidalanması, nəsil verib çoxala bilməsi üçün çox müxtəlif və mükəmməl sistemlərə sahibdir. Yəni hər canlı yaşadığı mühitə görə xüsusi olaraq dizayn olunmuşdur.



Orqanları, hərəkət etmə formaları daim mühitin tələbinə uyğun olar. Məsələn, quşlar havada uçmaq üçün mükəmməl qanadlara malikdir. Balıqların suda nəfəs almaq üçün xüsusi yaradılmış qəlsəmələri var. Əgər bizim kimi ağciyərləri olsaydı, suda boğulardılar.

## - Canlılar Yaşadıqları Mühitdəki Digər Canlılarla Uyğunluq Təşkil Edirlər

Bəzi quşlar və böcəklər, bitkilərin çoxala bilməsi üçün çox uyğun yaradılmışdırlar. Yəni xəbərləri olmadan bitkilərin çoxalmasına kömək edirlər. Məsələn, arılar çiçəkdən çiçəyə qonarkən üstlərinə bulaşan çiçək tozlarını digər çiçəklərə daşıyarlar. Bitkilər də bu daşınma əməliyyatı sayəsində çoxalarlar. Bəzi hallarda da heyvanlar, digər heyvanların xeyirinə olacaq işlər görərlər.



Məsələn, təmizləyici balıqlar, böyük balıqların üzərindəki mikroorqanizmləri təmizləyərək onların sağlam yaşamasına kömək edirlər. Yəni onlarla uyğunluq təşkil edirlər.

## - Canlılar Təbiətin Tarazlığını Təmin Etməyə Uyğundurlar

Heç bir canlı təbiətdəki tarazlığı pozmaz. Hətta onu qoruyacaq şəkildə yaradılıblar. Halbuki insan şüursuz şəkildə müdaxilə etdikdə bu tarazlığı poza bilər. Məsələn, insan bir canlı növünü çox ovladıqda onun nəslini kəsə bilər. Beləliklə də, nəsli tükənən həmin canlının qidası olan başqa bir canlı həddən artıq çoxala bilər və bu, insana və təbiətə zərər verə bilər. Deməli, canlılar yaradılarkən

müəyyən tarazlığa görə yaradılıblar. Təbiətin tarazlığına uyğunlaşdırılıblar.



## - İnsana Müxtəlif Faydalar Verməyə Uyğundurlar

Məsələn, balın sizin üçün nə qədər faydalı olduğunu bir düşünün. Arılar sizin belə bir qidaya ehtiyacınız olduğunu haradan bilir və belə bir qidanı necə hazırlayırlar? Eləcə də yumurta və süd, elə deyilmi? Toyuq, inək, qoyun insanın ehtiyacını öz-özünə bilərək, belə uyğun, mükəmməl qidalar hazırlaya bilərmi? Əlbəttə ki, xeyr.

Canlılar arasındakı bu çox mühüm uyğunluq, onların tək bir Yaradıcının əsəri olduqlarının aydın bir dəlilidir. Yer üzündəki bu tarazlıqlar Allahın mükəmməl yaratması sayəsində meydana çıxmışdır və hələ də mövcudluğunu davam etdirir.

## Kainatın Yaradılışı

Canlıları Allahın yaratdığını qeyd etdik. İndi isə növbə, içində hər şeyin yerləşdiyi kainatı araşdırmağa gəlib çatdı. İçində sizin, dünyanın, Günəşin, Günəş sisteminin, planetlərin, ulduzların, qalaktikaların bir sözlə, hər şeyin yerləşdiyi kainatı da Allah yaratmışdır.



Ancaq canlıların yaradılması həqiqətinə qarşı çıxanlar olduğu kimi, kainatın yaradılması həqiqətinə də qarşı çıxanlar var. Bu insanlar yenə çox axmaq iddialar irəli sürürlər. Kainatın öz-özünə yarandığını, hətta əzəldən bəri var olduğunu söyləyərlər. Ancaq bu olduqca məntiqsiz iddialarının necə gerçəkləşdiyini izah edə bilməzlər. Belə insanların iddiaları buna bənzəyir: Bir gün bir dəniz səyahətinə çıxsanız və bir adaya çatsanız. Bu adada indiyə qədər görmədiyiniz gözəl binaların yerləşdiyi bir şəhər olduğunu görsəniz. Üstəlik, bu şəhərin hər yerinin parklarla, oyun meydançalarıyla, zooparklarla, bir-birindən böyük kinoteatrlarla, restoranlarla, hər yerə asanlıqla çata biləcəyiniz prospektlərlə, qatar yolları ilə dolu olduğunu görsəniz nə düşünərsiniz? Bu şəhəri



ağıl sahibi insanlar inşa etmişdir elə deyilmi? Biri çıxıb sizə; "bu şəhəri heç kəs inşa etmədi, bu şəhər əzəldən bəri burada mövcud idi, biz də gəlib burada yaşamağa başladıq. Ehtiyacımız olan hər şey var və bunların hamısı öz-özünə meydana gəlmişdir" desə bunları söyləyən insan barədə nə düşünərsiniz?

Əlbəttə ki, bu insan ya ağlını itirmiş, ya da nə danışdığını bilmir deyərsiniz. Amma unutmayın, içində yaşadığımız kainat burada təsvir etdiyimiz şəhərlə müqayisə edilə bilməyəcək qədər böyükdür və olduqca möhtəşəm strukturlara (planetlər, günəşlər, ulduzlar, peyklər, quyruqlu ulduzlar və s.) malikdir. Bu təqdirdə, bu mükəmməl kainatın yaradılmadığını, əzəldən bəri mövcud olduğunu söyləyən insana bir cavab vermək lazımdır, elə deyilmi?

Aşağıdakı hissəni oxuduqdan sonra bu insana ən gözəl cavabı siz verəcəksiniz. İndi sizə bir qədər kainat barədə məlumatlar verək. Əsil cavabı isə, ən axırda verək.

## - Hər Şey Böyük Partlayış Nəticəsində Yaranmağa Başlayır

İnsanlar, kifayət qədər göyü müşahidə etmə imkanları olmadığı vaxtlarda, kainat haqqında çox az və həqiqətdən kənar məlumatlara sahibdilər. Vaxt keçdikcə əllərindəki müşahidə vasitələri təkmilləşdi və kosmos barədə daha doğru məlumatlara sahib olmağa başladılar. Onlar XX əsrin ortalarında çox əhəmiyyətli bir şey kəşf etdilər: Kainatın da doğum tarixi var. Yəni kainat əzəldən bəri mövcud deyildi. Kainatdakı bütün maddələr, maddələrin meydana gətirdiyi ulduzlar, qalaktikalar, bir sözlə, hər şey müəyyən andan etibarən yaranmağa başlamışdı. Elm adamları, bu başlanğıc tarixinin dövrümüzdən təxminən 15 milyard il əvvələ gedib çıxdığını müəyyənləşdirdilər.

Kainatın doğum formasına bir ad qoydular və buna “böyük partlayış” dedilər. Çünki heç nəyin olmadığı 15 milyard il bundan əvvəl, hər şey tək bir nöqtənin partlaması nəticəsində yaranmışdı. Bir sözlə, əvvəllərdən bəri sonsuz olduğu güman edilən maddənin və kainatın da bir başlanğıcı vardı. Bəs bunu necə anladılar? Çox asan, çünki o partlayış nəticəsində ətrafa saçılan və bir-birlərindən uzaqlaşmağa başlayan maddələr indi də bir-birlərindən uzaqlaşmağa davam edirlər. Uşaqlar bir düşünün, kainat hələ də genişləməyə davam edir. Kainatı şişmiş bir şar kimi düşünün. Bu şarın



üzərinə qələmlə iki nöqtə qoysaq, biz şarı şişirtdiyimizdə nə baş verər? Şara qoyduğumuz nöqtələr, şişib həcmi genişləndikcə bir-birindən uzaqlaşar. Məhz, kainatın həcmi də eynilə bu cür böyüyür və içindəki hər şeyin bir-birinə olan məsafəsi artır. Yəni, bütün ulduzlar, qalaktikalar, göy cisimləri arasındakı məsafə daim artır.

Kainatın genişlənməsi prosesini bir cizgi filmdə izlədiyinizi düşünün. Sizcə cizgi filmi ən başına qaytarsanız, kainatın görünüşü necə olar? Bir nöqtə kimi olar, elə deyilmi? Məhz elm adamları da eynilə bu cür etdilər: Başa qayıtdılar və getdikcə genişlənən kainatın başlanğıcda tək bir nöqtə olduğunu anladılar.

Elm adamlarının "böyük partlayış" adlandırdığı bu partlayış, Allahın "kainat" üçün müəyyənləşdirdiyi ömür müddətinin başlanğıcı oldu. Allah bu partlayışla birlikdə kainatı meydana gətirən atomları yaratdı. Maddə əmələ gəldi. Çox böyük sürətlə ətrafa saçıldılar. Partlayışın ilk anlarındakı bu mühit sanki atomlardan ibarət bir maddə şorbası idi. Lakin bu çox böyük qarışıqlıq getdikcə ortadan qalxdı və nizam yarandı. Allah, atomları birləşdirərək ulduzları meydana gətirdi. Beləliklə də, kainatda



hazırda müşahidə etdiyimiz hər şey yaradıldı.

İstəyirsinizsə bütün bunları daha yaxşı başa düşməyimizi təmin edəcək bir nümunə verək:

Zehninizdə çox böyük bir boşluq canlandırın. Ucsuz-bucaqsız bir boşluq. Orada yalnız bir boya bankası olsun. Başqa heç nə olmasın. Bankanın içində də hər rəngdən olan boyalar bir-birinə qarışmış, qəribə bir rəng meydana gətirmiş olsun. Bu bankanın içində bir bomba partlayır. Partlayışın təsiri nəticəsində boya çox kiçik damlalar halında ətrafa saçılır. Milyonlarla boya damlasının boşluq içində bütün istiqamətlərə hərəkət etdiyini gözünüzdə canlandırın. Amma bu damlaların səfəri əsnasında qəribə şeylər olmağa başlayır. Boya damlaları, dağınıq halda hərəkət etmək əvəzinə, sanki çox ağıllılarmış kimi nizamlı işlər görməyə başlayırlar. Əvvəlcə bankada olarkən qarışıq rəng meydana gətirən müxtəlif rəngli damlalar, artıq bir-birlərindən ayrılmağa başlayırlar. Mavi, sarı, qırmızı və digər rənglər halında qruplaşır və ətrafa yayılıb bir-birindən uzaqlaşmağa davam edirlər. Amma qəribəliklər davam edir. Bu dəfə də mavi rəngli damlalardan 500-i birləşərək daha böyük damla yaradır və səfərlərinə davam edirlər. Məsələn, başqa bir yerdə, 300 qırmızı damla, digər bir yerdə isə 200 sarı damla eynilə bu cür birləşərək, böyük damlalar halında ətrafa yayılmağa davam edirlər. Həm bir - birlərindən uzaqlaşırlar, həm də bu əsnada sanki biri onlara əmr etmiş kimi, gözəl görünüşlər meydana gətirəcək işlər görürlər.

Bəzi damlalar birləşərək ulduzları meydana gətirir, bəziləri Günəşi çəkir, bəzi damlalar isə sonradan bu Günəşin ətrafında hərəkət edən planetləri meydana gətirir. Bir hissəsi birləşib yer kürəsini çəkirlər və bir hissəsi də yerin ətrafında fırlanan Ayı meydana gətirirlər. Belə bir mənzərə görsəniz, bunu, partlayan bir boya bankasının təsadüfən meydana gətirdiyini düşünərsiniz mi? Əlbəttə ki, belə bir şeyi əsla ehtimal etməzsiniz.





Məhz gecə başımızı qaldırıb göyə baxanda gördüyümüz o gözəl mənzərəni, ulduzları, Günəşi, planetləri meydana gətirən maddələr də, eynilə bu boya bankası

hekayəsində olduğu kimi, birləşərək bu mükəmməl mənzərəni meydana gətirdilər. Bəs bütün bunlar öz-özünə yaranmış ola bilərmi? Səmadakı ulduzlar, planetlər, Günəş, Ay və yer kürəsi, bəzi şüursuz maddələrin öz-özünə təsadüfən birləşməsiylə yaranmış ola bilərmi? Bəs dünya üzərində həyatını davam etdirən ananız, atanız, dostlarınız və ya quşlar, pişiklər, çiyələklər, bananlar necə?



Əlbəttə ki, belə bir şey ola bilməz. Belə bir şey ola biləcəyini düşünmək, içində bomba partlayan hər hansı tikilidəki kərpiclərin və kirəmitlərin öz-özlərinə təsadüfən bir yerə toplanaraq yeni evlər inşa etdiklərini iddia etməkdən daha axmaq bir düşüncə olar. Hamımız, bir tikilidə bomba partlayacağı vaxt, ətrafa dağılan kərpiclər, kirəmitlər və taxtaların kənarda kiçik alaçıqlar meydana gətirməyəcəyini bilirik. Daş-torpaq halında dağılıb gedər, heç nəyə yaramazlar.

Ancaq burada çox mühüm olan incə bir məqam var. Diqqət yetirmisinizsə bir qədər əvvəl nümunə verdiyimiz boya damlaları şüursuz və cansız maddələrdir. Boyaların öz-özlərinə birləşmələri və bir portret meydana gətirmələri qeyri-mümkündür. Biz isə burada şüurlu və canlı strukturların meydana gəlməsindən bəhs edirik. İnsan, bitki və heyvan kimi canlı varlıqların cansız və nəzarətsiz maddələrdən yaranması da qətiyyən mümkün deyil.

Öz bədənimizdən nümunələr verərək bunu düşünək. Bədənimiz zülal, yağ, su kimi gözlə görülməyəcək qədər kiçik molekulların birləşməsi nəticəsində yaranar. Bunlar birləşərək hüceyrələrimizi, hüceyrələrimiz də birləşərək bədənimizi meydana gətirər. Bədənimizdəki mükəmməl nizam xüsusi bir dizaynın nəticəsidir. Hər şeyi görməyimizi təmin edən gözlərimizi, yemək yeməyimiz və bu jurnalı tuta bilməyimiz üçün əllərimizi, yerimək üçün də ayaqlarımızı yaradan Allahdır. Hələ anamızın bətnində olarkən, necə böyüyəcəyimizi, boyumuzun nə qədər olacağını, gözlərimizin hansı rəngdə olacağını, bir sözlə, hamısını Allah müəyyənləşdirmişdir.

## Hər Şeyi Yaradan Allahdır

Əgər xatırlayırsınızsa mövzumuzun əvvəlində Allaha iman etməyən bir insana cavab verəcəkdik. Məhz artıq cavabı bilirsiniz. Partlayışlar nizam meydana gətirə bilməz, ancaq mövcud nizamı korlayarlar. Kainatda isə, möhtəşəm tarazlıq və nizam var. Kainatın meydana gətirən partlayışdan sonra ortaya çıxan nizam, buraya qədər izah

etdiyimiz nümunələrdən (böyük şəhər və boya qutusu nümunələri) daha çox mükəmməldir. Bunların təsadüfən yarana bilməsi qətiyyən mümkün deyil.

Bu mükəmməl sistem ancaq sonsuz qüdrət sahibi olan Allahın diləməsiylə yaranmışdır. Allah hər şeyə gücü çatır. Bir şeyi yaratmaq üçün Rəbbimizin sadəcə "ol" əmrini verməsi kifayətdir.

Allah bizim üçün mükəmməl bir kainat içində çox gözəl bir dünya yaratmışdır. Üzərində növbənöv heyvanlar, bitkilərlə birlikdə... Bizi isitməsi, enerji verməsi üçün Günəşi də yaratmışdır. Eləcə də Günəş, dünyaya elə yaxşı nizamlanmış məsafədə yerləşir ki, bir qədər yaxın olsa istidən, bir qədər uzaq olsa isə, soyuqdan ölərik.

Məhz elm adamları bizə bu həqiqətləri danışdıqca, biz də Allahın gücünü daha yaxşı anlayırıq. Çünki qətiyyən ağlı və zəkası olmayan boya damlası nümunəsindəki kimi, maddələr özləri qərar verib belə bir şeyi edə bilməzlər. Deməli, bu kainatı da yaradan və qaydaya salan var. Ulduzları, insanları, heyvanları, bitkiləri, canlı-cansız hər şeyi meydana gətirən maddələr də Allahın əmri ilə hərəkət edirlər. Bunun üçün kainatdakı hər şey nizamlıdır, qarışmaz, uyğundur. Çünki bütün bunları, hər şeyi mükəmməl şəkildə yaradan Allah yaratmışdır.

## Vəhşi Boz Qazlar

Vəhşi boz qazlar 8000 metr kimi inanılmaz bir hündürlükdə uça bilirlər. Bu, çox çətin bir işdir, bir çox canlılar bu hündürlükdə hətta nəfəs də ala bilməz. Bunun səbəbi atmosferdə yuxarı qalxdıqca havadakı oksigenin miqdarının azalmasıdır. Bu hal hündürlükdə nəfəs almağı çətinləşdirir. Biz insanların da hər hansı bir dağa çıxdığımız zaman çətin nəfəs almağımızın səbəbi budur. Buna görə də atmosferin belə hündürlüyündə uçan quş daha sürətlə qanad çalmaq məcburiyyətindədir. Çox qanad çalmaq üçün də quş daha çox oksigen sərf etməlidir. Bu isə quşun işini çox çətinləşdirəcək bir haldır. Lakin quşlar hətta min metr hündürlükdə də uçsalar, heç vaxt çətinliklə üzləşmirlər. Çünki bu heyvanlarn ciyərləri hündürlükdəki az oksigendən ən səmərəli istifadə edə biləcək şəkildə yaradılmışdır.





Onların başqa canlılardan fərqli fəaliyyət göstərən ağciyəri kifayət qədər hava olmayan bir yerdə normadan artıq enerji almasını təmin edir. Bu isə bizə Allahın qüsursuz yaratmasını sübut edən örnəklərdən biridir.



*"O kəslər ki, sənə göndərilənə (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar." (Bəqərə surəsi, 4)*

# TÖVRATDAN:

## İman Gətirənlər Allahı Sevər

Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, bütün gücünlə sev.
(Qanunun Təkrarı, 6:5)

Bu gün sizə **Allahınız Rəbbi sevməyi,** Onun qoyduğu yollarla getməyi, əmrlərinə, qaydalarına, hökmlərinə riayət etməyi əmr edirəm. Belə etsəniz, ...Allahınız Rəbb tərəfindən xeyir-dua alacaqsınız. (Qanunun Təkrarı, 30:16)

Bilin ki, Allahınız Rəbb əsl Allahdır. O, vəfalı Allahdır. Əhdinə sadiq qalıb **Onu sevənlərin,** əmrlərini yerinə yetirənlərin minlərlə nəslinə məhəbbətini göstərər.
(Qanunun Təkrarı, 7:9)

Rəbb deyir: "Əgər bu gün sizə buyurduğum əmrlərə yaxşı qulaq assanız, **Allahınız Rəbbi sevib** bütün qəlbinizlə, bütün varlığınızla ona sitayiş etsəniz, o zaman Mən torpağınıza yağışı – ilk yağışla son yağışı vaxtlı-vaxtında verəcəyəm... (Qanunun Təkrarı, 11:13-14)

Ey göylərin Allahı Rəbb! **Səni sevənlərlə,** əmrlərinə əməl edənlərlə Öz əhdinə sadiq qalıb lütf göstərirsən. Ey böyük və zəhmli Allah! (Nehemya, 1:5)

...Allahınız Rəbbi bütün qəlbinizlə, bütün varlığınızla sevəsiniz və yaşayasınız.
(Qanunun Təkrarı, 30:6)

**Allahınız Rəbbi sevin...**
(Qanunun Təkrarı, 30:20)

...Allahınız Rəbb sizi sınayır, görmək istəyir, siz Allahınız Rəbbi bütün qəlbinizlə, bütün varlığınızla sevirsinizmi? (Qanunun Təkrarı, 13:3)

**Rəbbi sevin**, siz ey bütün möminlər! Rəbb həmişə Ona sadiq qalanı qoruyur...
(Zəbur, 31:23)

**Ey Ordular Rəbbi, məskənin nə qədər əzizdir**, Qəlbim Rəbbin həyətinin həsrətindədir, Könlüm, cismim var olan Allaha mədh oxuyur. (Zəbur, 84, 1-2)

...Allahın Rəbb səndən nə istəyir? Yalnız bunu istəyir: Ondan qorx, tamamilə Onun yolunu tut, **Onu sev**, bütün qəlbinlə və bütün varlığınla Allahın Rəbbə sitayiş et. Bu gün xoş güzəranın üçün sənə buyurduğum Rəbbin əmr və qaydalarına riayət et. (Qanunun Təkrarı, 10:12-13)



**Allahınız Rəbbi sevin**. Həmişə Onun buyruq, qayda, hökm və əmrlərinə əməl edin. (Qanunun Təkrarı, 11:1)

Əməl etməniz üçün sizə buyurduğum bütün bu əmrləri diqqətlə yerinə yetirsəniz, **Allahınız Rəbbi sevib** Onun yolları ilə getsəniz və yalnız Ona bağlı qalsanız... (Qanunun Təkrarı, 11:22)

**Allahınız Rəbbi sevmək** və daim Onun yolları ilə getmək üçün bu gün sizə buyurduğum bütün bu əmrlərə diqqətlə



*"O kəslər ki, sənə göndərilənə (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar." (Bəqərə surəsi, 4)*

əməl etdiyiniz üçün Allahınız Rəbb atalarınıza and etdiyi kimi sizin sərhədinizi genişləndirərsə və atalarınıza verməyi vəd etdiyi bütün torpaqları sizə verərsə, o zaman özünüz üçün bu üç şəhərdən əlavə üç şəhər də seçin. (Qanunun Təkrarı, 19:8-9)

**Allahınız Rəbbi sevin**, sözü qulağınızda qalsın və Ona bağlanın. Çünki sizin həyatınız Odur. Belə etsəniz, Rəbbin ata-babalarınız İbrahimə, İshaqa və Yaquba verməyi vəd etdiyi torpaqda sizi uzun ömürlü edəcək. (Qanunun Təkrarı, 30:20)

Ancaq Rəbbin qulu Musanın sizə buyurduğu əmrə və qanuna əməl etməyə səylə çalışın. **Allahınız Rəbbi sevin**, tamamilə Allahın göstərdiyi yolla gedin və əmrlərinə əməl edin, Ona bağlanın, bütün qəlbinizlə, bütün varlığınızla yalnız Ona qulluq edin. (Yeşua, 22:5)

...Allahınız Rəbbi sevməyə cəhd edin. (Yeşua, 23:11)

Yeşua dedi: "Elə isə indi aranızda olan yad allahları atın, **ürəyinizi İsrailin Allahı Rəbbə** meyl etdirin". (Yeşua, 24:23)

Rəbbə dedim: "Mənim Xudavəndim Sənsən. **Səndən başqa mənim xoşbəxtliyim yoxdur"**. (Zəbur, 16:2)

Məhəbbətin gözümün önündə durur, Sənin sədaqətinlə gəzirəm. Ya Rəbb, məskənin olan evi, Calalının sakin olduğu yeri sevirəm. (Zəbur, 26:3, 8)

Maral axar sulara həsrət qalan kimi, Ey Allah, könlüm Sənin həsrətini çəkir! Ey var olan Allah, mənim qəlbim Sənin üçün susayıb. Ay Allah, nə vaxt gəlib hüzurunda görünüm?... Mənim qəlbim, niyə qırılmısan? Axı niyə bu köksümdə təlaşlanırsan? Ümidini yenə Allaha bağla, Qoy Allahıma – məni qurtarana şükür edim. Rəbb mənə gündüz məhəbbət göstərir, Gecə isə həyatımın Allahına Etdiyim dua və ilahi dilimdən düşmür Mənim qəlbim, niyə qırılmısan? Axı niyə bu köksümdə təlaşlanırsan? Ümidini yenə Allaha bağla, Qoy Allahıma – məni qurtarana şükür edim. (Zəbur, 42:1-2, 5, 8, 11)

Mənim dilim Səni tərənnüm edir, Məhəbbətin bu həyatdan gözəldir. Bütün ömrüm boyu Sənə alqış edəcəyəm, Əllərimi qaldırıb adınla Səni səsləyəcəyəm. Sanki yağlı yeməklə canım tox olacaq, Dilim Səni mədh edəcək, ağzım həmd oxuyacaq. Yatanda belə, Səni xatırlayıram, Gecə növbələrində Səni düşünürəm. Sən mənə kömək oldun, Qanadlarının kölgəsində Sənə mədh oxuyacağam. Könlüm Sənə bağlanır, Sağ əlin məni möhkəm tutur. (Zəbur, 63:3-8)

**Rəbbi sevirəm**, Çünki O, yalvarışımı eşidir. Səsimə qulaq asdığı üçün Nə qədər varam, Onu çağıracağam. (Zəbur, 116: 1-2)

Fəqət mən bol məhəbbətin naminə evinə gələcəyəm, Üz tutub müqəddəs məbədinə qorxu ilə səcdə edəcəyəm. (Zəbur, 5:7)

..."Ayağım büdrəyir" deyən zaman, Ya Rəbb, mənə məhəbbətinlə dayaqsan. Mən daxilən çox narahat olarkən Təsəlli verərək məni fərəhləndirirsən... Rəbb mənə qala oldu, Allahım mənə sığınacaq bir qaya oldu! (Zəbur, 94:18, 19, 22)



*"O kəslər ki, sənə göndərilənə (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar." (Bəqərə surəsi, 4)*

...Allahınız Rəbdə sevinin və şadlanın... (Yoel, 2:23)

**Göstərişlərinin ardınca gedərkən sevinirəm**, Elə bil bolluca var-dövlətə çatmışam. Qayda-qanunlarını dərindən düşünürəm, Sənin yollarından gözümü çəkmirəm. **Qaydalarından zövq alıram, Sözünü unutmuram** (Zəbur, 119:14-16)

## İman Gətirənlər Allaha Qəlbdən Bağlı və Yaxındır

Allahınız Rəbdən qorxun, Ona sitayiş edərək **sadiq qalın** və yalnız Onun adı ilə and için. (Qanunun Təkrarı, 10:20)

Özünüz üçün salehlik əkin, Məhəbbət bəhərini biçərsiniz... **Çünki Rəbbi axtarmaq vaxtıdır...** (Huşə, 10:12)

**Allahın Rəbbə üz tut**, ey İsrail... **Dua sözləri ilə Rəbbə tərəf dönün**. Ona belə deyin: Hər qəbahətimizi bağışla, Bizi mərhəmətlə qəbul et... (Huşə, 14:1-2)

Buna görə də sən Allahına üz tut, Məhəbbətə, ədalətə bağlan, Daim Allahına ümid bağla (Huşə, 12:6)

Rəbb Onu çağıran bütün insanlara, Onu sidq ürəkdən çağıran bütün insanlara yaxındır. (Zəbur, 145:18)

Ey qəlbim, sükutla Allahı gözlə, Çünki ümidim Ondadır. (Zəbur, 62:5)

Ya Rəbb, Sənə ürəyimi təqdim edirəm, (Zəbur, 25:1)

Qoy sizin ürəyiniz bütünlüklə Allahımız Rəbbə sadiq olsun ki, bu gün olduğu kimi Onun qanunları ilə gedəsiniz və **Onun əmrlərinə əməl edəsiniz**. (Birinci Padşahlar, 8:61)

Məni sevənləri sevirəm, **Məni səylə axtaran tapır**. (Süleymanın Məsəlləri, 8:17)

Siz Allahınız Rəbbin ardınca gedin və Ondan qorxun. **Onun əmrlərinə əməl edib sözlərinə qulaq asın, Rəbbə sitayiş edərək Ona bağlı qalın**. (Qanunun Təkrarı, 13:4)

Allahınız Rəbbi sevin, sözü qulağınızda qalsın və Ona bağlanın. Çünki sizin həyatınız Odur... (Qanunun Təkrarı, 30:20)

Yalnız bu günə qədər etdiyiniz kimi **Rəbbə etibar edin**. (Yeşua, 23:8)

Elə buna görə **ürəklərinizi sünnət edin** ki, bir daha dikbaş olmayasınız. (Qanunun Təkrarı, 10:16)

Tapmaq fürsəti olarkən Rəbbi axtarın, O yaxın ikən Onu çağırın. (Yeşaya, 55:6)

**Bütün qəlbimlə Səni axtarmışam**, Qoyma əmrlərindən çıxım. Sənə qarşı günah etməyim deyə Kəlamını qəlbimdə qoruyub saxlamışam. Ya Rəbb, Sənə alqış olsun! Qaydalarını mənə öyrət. Ağzından çıxan hər hökmü Dilimlə bəyan edirəm. (Zəbur, 119:10-13)

**Rəbb belə bəyan edir ... Bütün qəlbinizlə Mənə dönün**. Paltarlarınızı deyil, ürəyinizi yırtın, Allahınız Rəbbə tərəf qayıdın. Çünki O, lütfkar və rəhmlidir, Hədsiz səbirlidir, bol məhəbbətlidir, Bəla göndərməz, rəhm edər. (Yoel, 2:12-13)



*"O kəslər ki, sənə göndərilənə (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar." (Bəqərə surəsi, 4)*

# İNCİLDƏN:

## İncildə Allah Qorxusu

Siz dostlarıma söyləyirəm, bədəni öldürən, amma ondan sonra başqa bir şey edə bilməyənlərdən qorxmayın. **Kimdən qorxmanız lazım olduğunu sizə açıqlayım: Birini öldürdükdən sonra cəhənnəmə atmağa qadir olan Allahdan qorxun. Bəli, sizə söyləyirəm, Ondan qorxun.** (Luka, 12:4-5)

... **Qürbəti xatırladan bu dünyadakı zamanınızı Allah qorxusunda keçirin.** (1 Peter, 1:17)

... Hər xalqa, hər soya, hər dilə, hər millətə yüksək səslə, "Allahdan qorxun, Onu ucaldın" deyirdi... (Vəhy, 14:6-7)

[Hz. İsa (ə.s):] "Bədəni öldürən, amma canı öldürə bilməyənlərdən qorxmayın. Canı da, bədəni də cəhənnəmdə məhvə uğrada bilən Allahdan qorxun." (Matta, 10:28)

Hər kəsə hörmət göstərin. İmanlı qardaşlarınızı sevin, Allahdan qorxun... (1 Peter, 2:17)

Çünki güclü olan [Allah], mənim üçün böyük işlər etdi. Onun adı müqəddəsdir. **Nəsillər boyunca Ondan qorxanlara mərhəmət edər.** (Luka, 1:49-50)

Dindar bir adam idi. Həm özü, həm də bütün ev xalqı Allahdan qorxardı. Xalqa çox kömək edər, Allaha həmişə dua edərdi. (Həvarilərin İşləri, 10:2)

**Rəbdən qorxmağın nə demək olduğunu bildiyimizdən insanları razı salmağa çalışırıq.** Nə olduğumuzu Allah bilir; ümid edirəm siz də vicdanınızda bilirsiniz. (2 Korinflilərə, 5:11)

Yüksək səslə belə deyirdi: **"Allahdan qorxun!** Onu ucaldın! Çünki Onun mühakimə etmə saatı gəldi. Göyü, yeri, dənizi, su çeşmələrini Yaradana qulluq edin!" (Vəhy, 14:7)

O zaman Peter söz alıb belə dedi: "Allahın insanlar arasında ayrı-seçkilik etmədiyini, amma Özündən qorxan və doğru olanı edən insanı, xalqına baxmadan qəbul etdiyini, həqiqətən anlayıram. (Həvarilərin İşləri, 10:34-35)

"Doğru və Allahdan qorxan, bütün yəhudi xalqı tərəfindən yaxşılığıyla tanınan... bir kapitan var" dedilər. (Həvarilərin İşləri, 10:22)

**Qardaşlar, İbrahimin soyundan gələnlər və Allahdan qorxan əcnəbilər, bu qurtuluş məlumatı bizə göndərildi.** (Həvarilərin İşləri, 13:26)

... Sənin qəzəbin üzərlərinə gəldi. Ölüləri mühakimə etmək, qulların olan peyğəmbərləri, müqəddəsləri, kiçik və ya böyük olsun Sənin adından qorxanları mükafatlandırmaq və yer üzünü məhv edənləri məhv etmək zamanı da gəldi. (Vəhy, 11:18)

Allah qulu Musanın və Quzunun [hz. İsa (ə.s)-ın] nəğməsini söyləyirdilər: "Hər şeyə gücü yetən, Rəbb Allah, Sənin işlərin böyük işlərdir. Ey xalqların hökmdarı, Sənin yolların doğru və ədalətlidir. **Ya Rəbb, Səndən kim qorxmaz,** Adını kim ucaltmaz? Çünki müqəddəs olan tək Sənsən. Bütün xalqlar gəlib Sənə qulluq edəcəklər. Çünki ədalətli işlərin açıqca göründü". (Vəhy, 15:3-4)



*“O kəslər ki, sənə göndərilənə (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar.” (Bəqərə surəsi, 4)*

Sonra taxtdan bir səs yüksəldi: “Ey Allahın bütün qulları! **Kiçik böyük, Ondan qorxan hamınız, Onu öyün!”** (Vəhy, 19:5)

... Onu danladı. **“Səndə Allah qorxusu da yoxdur?” deyə cavab verdi...** (Luka, 23:40)

**Belə ki, Allahı məmnun edəcək şəkildə hörmət və qorxuyla ibadət edək.** (İbranilərə, 12:28)

## İNCİLDƏ ALLAHA TƏMİZ İMAN:

# Şirk Qoşmadan Sadəcə Allaha Qulluq Etmək

İsa ona bu qarşılığı verdi: **“Allahın olan Rəbbə tapın, sadəcə Ona qulluq et”** deyə yazılmışdır**”.** (Luka, 4:8)

İsa onlara bu qarşılığı verdi:... **“Allahın olan Rəbbə tapın, sadəcə Ona qulluq et”** deyə yazılmışdır**.** (Matta, 4:10)

... Sevimli qardaşlarım, bütpərəstlikdən çəkinin. (1 Korinflilərə, 10:14)

Hər kəs bizi nə qədər yaxşı qarşıladığınızı izah edib durur. **Yaşayan gerçək Allaha qulluq etməklə** bütlərdən Allaha necə döndüyünüzü izah edirlər. (1 Saloniklilərə, 1:9-10)

Ölümsüz Allahın ucalığı yerinə ölümlü insana, quşlara, dörd ayaqlılara, sürünənlərə bənzəyən bütləri istədilər [Allahı tənzih edirik]... Onlar Allahla bağlı gerçəyin yerinə yalanı qoydular. Yaradanın yerinə yaradılmışa tapınıb qulluq etdilər [Allahı tənzih edirik]. Halbuki Allah sonsuza qədər təriflənməyə layiqdir... (Romalılara, 1:23-25)

[Hz. İsa (ə.s):] “Heç bir uşaq iki ağaya qulluq edə bilməz… **Siz həm Allaha, həm pula qulluq edə bilməzsiniz** [Allahı tənzih edirik].” (Luka, 16:13)

... İçinizdəki “işıq” qaranlıqdırsa, nə qorxuncdur o qaranlıq! **Heç kim iki ağaya qulluq edə bilməz.** Ya birindən nifrət edib o birisini sevər, ya da birinə bağlanıb o birisini xor görər. **Siz həm Allaha, həm də pula qulluq edə bilməzsiniz.** (Matta, 6:23-24)

... **Hələ bütpərəst vərdişlərinin təsirində qalan bəziləri, yedikləri ətin bütə təqdim edildiyini düşünürlər.** Vicdanları zəif olduğu üçün ləkələnir. Yemək bizi Allaha yaxınlaşdırmaz. Yeməsək bir itkimiz olmaz, yesək də bir qazancımız olmaz. (1 Korinflilərə, 8:7-8)

**Bütpərəstlər qurbanlarını Allaha deyil, cinlərə təqdim edirlər.** Cinlərlə ortaq olmanızı istəmərəm. Həm Rəbbin, həm cinlərin kasasından içə bilməzsiniz; **həm Rəbbin, həm cinlərin süfrəsinə ortaq ola bilməzsiniz.** (1 Korinflilərə, 10:20-21)

Bütlərə təqdim edilən qurban ətinin yeyilməsinə gəlincə, bilirik ki, “Dünyada büt bir heçdir” və “**Birdən çox Allah yoxdur**”. (1 Korinflilərə, 8:4)

Balalarım, özünüzü bütlərdən qoruyun. (1 Yəhya, 5:21)

Geriyə qalan insanlar, yəni bu balalardan ölməyənlər **öz əlləriylə hazırladıqları bütlərdən dönüb tövbə etmədilər**. Cinlərə və görə bilməyən, eşidə bilməyən, gəzə bilməyən qızıl, gümüş,



***“O kəslər ki, sənə göndərilənə (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar.” (Bəqərə surəsi, 4)***

tunc, daş, taxta bütlərə tapınmaqdan imtina etmədilər. (Vəhy, 9:20)

## Ataların Batil Adətinə - Dininə Uymamaq

Bununla belə... **İsaya gəlib, “Şagirdlərin niyə atalarının adətini tapdalayır?” dedilər... İsa onlara bu qarşılığı verdi: “Bəs siz, niyə adətlərinizə görə Allahın buyruğunu tapdalayırsınız?”**

(Matta, 15:1-3)

... İsadan soruşdular: **“Şagirdlərin niyə atalarının adətinə zidd davranır?...” İsa onları belə cavabladı: “… Siz Allahın əmrini buraxıb insanların adətini tutursunuz”.** İsa onlara ayrıca bunu söylədi: **“İnsanların adətinə uymaq üçün Allahın əmrini rədd edirsiniz”.** (Mark, 7:5-9)

## Sadəcə Allahın Rizasına Görə Yaşamaq

Nəticə olaraq, nə yeyib içsəniz, **hər şeyi Allahın ucalığı üçün edin**.

(1 Korinflilərə, 10:31)

**Rəbdən miras mükafatını götürəcəyinizi bilərək, hər nə etsəniz, insanlar üçün deyil, Rəbb üçün səmimi olaraq edin...** (Kolosselilərə, 3:23-24)

**Günü qeyd edən, Rəbb üçün qeyd edər. Hər şeyi yeyən, Allaha şükür edərək bunu Rəbb üçün yeyər. Bəzi şeyləri yeməyən də Rəbb üçün yeməz və Allaha şükür edər.** Heç birimiz özümüz üçün yaşamırıq, heç birimiz də özümüz üçün ölmürük. **Yaşasaq, Rəbb üçün yaşayarıq; ölsək, Rəbb üçün ölərik.**

(Romalılara, 14:6-8)

... **Allahı sevmək Onun buyruqlarını yerinə yetirmək deməkdir.** Onun buyruqları da ağır deyil... Bizə dünyaya qarşı zəfər qazandıran imanımızdır.

(1 Yəhya, 5:2-4)

...**Allahın buyruqlarını yerinə yetirən**, İsaya imanlarını davam etdirən müqəddəslərin səbirini tələb edir.

(Vəhy, 14:12)

**Rəbbə yaraşar şəkildə yaşamanız, Onu hər cəhətdən məmnun etməyiniz, hər yaxşı işdə meyvə verərək Allahı tanımaqda irəliləməniz üçün dua edirik.** (Kolosselilərə, 1:10)

**Əlavə olaraq baxa bilərsiniz:**

**İbranilərə,:**12:28, 11:6;
**1 Peter:** 2:16, 2:19-20, 4:1-2, 4:19;
**Efeslilərə:** 6:6;
**1 Saloniklilərə:** 2:4, 4:1;
**Matta:** 7:21, 19:17;
**Romalılara:** 2:13, 8:8-9, 14:18-19;
**1 Korinflilərə:** 7:17, 7:19, 7:35, 8:5-6;
**2 Korinflilərə:** 5:9;
**Qalatiyalılara:** 1:10;
**Luka:** 17:10;
**Kolosselilərə:** 3:20;
**Mark:** 3:35;
**1 Timoteyə:** 2:1-3, 5:4;
**Filipililərə:** 2:13;
**1 Yəhya:** 2:17, 3:21-22, 3:24;
**Yəhya:** 4:34, 6:38, 7:16-18, 8:29, 9:31.




# 2 AYƏDƏ BAŞQA 1 AYƏNİN BİRLƏŞMƏSİ:

**ZUMƏR: 32**
**Allaha qarşı yalan uydurub söyləyən, özünə gələn həqiqəti təkzib edən kimsədən daha zalım kim ola bilər? Məgər Cəhənnəmdə kafirlər üçün yer yoxdur?**

**ZUMƏR: 50**
**Şübhəsiz ki, bu sözü onlardan əvvəlkilər də demişdilər. Lakin qazandıqları onlara heç bir fayda vermədi.**

**1) ƏNAM, 21:**
**Allaha iftira yaxan və Onun ayələrini yalan hesab edən kəsdən daha zalım kim ola bilər?** Şübhəsiz ki, zalımlar nicat tapmazlar!

**2) ƏNKƏBUT, 68:**
Allaha qarşı yalan uydurub düzəldən, özünə haqq gəldikdə onu təkzib edən kəsdən daha zalım kim ola bilər?! **Məgər kafirlər üçün Cəhənnəmdə yer yoxdur?**

**1) BƏQƏRƏ, 118:**
Cahillər dedilər: "Nə olaydı ki, Allah bizimlə də danışaydı, bizə də bir ayə gələydi!" **Onlardan əvvəl gələnlər də buna bənzər sözlər demişdilər.** Onların qəlbləri bir-birinə bənzəyir. Biz tam yəqinliklə iman gətirənlərə ayələrimizi açıqcasına göstərdik."

**2) HİCR, 84:**
**Gördükləri tədbirlər onlara heç bir fayda vermədi.**

*“Bu (Quran), aləmlər üçün ancaq bir öyüddür! Siz onun verdiyi xəbəri bir müddət sonra mütləq biləcəksiniz.” (Sad surəsi 87-88)*



# 3 AYƏDƏ BAŞQA 1 AYƏNİN BİRLƏŞMƏSİ:

**TƏĞABUN, 12:**
**Allaha itaət edin, Onun Peyğəmbərinə itaət edin; hər kəs üz döndərsə, Peyğəmbərimizin öhdəsinə düşən yalnız açıq-aşkar təbliğdir.**

**1) MUHƏMMƏD, 33:**
Ey iman gətirənlər! **Allaha itaət edin, Peyğəmbərə itaət edin** və əməllərinizi puça çıxartmayın.

**2) YUNUS, 72:**
**Əgər siz üz çevirsəniz**, mən sizdən heç bir mükafat istəmirəm. Məni mükafatlandırmaq yalnız Allaha aiddir. Mənə müsəlmanlardan olmaq əmr edilmişdir!

**3) MAİDƏ, 92:**
Allaha və Peyğəmbərə itaət edin. Əgər boyun qaçırsanız, bilin ki, **peyğəmbərimizin vəzifəsi yalnız açıq bir təbliğdir.**

**BƏQƏRƏ, 82:**
**İman gətirənlər və yaxşı işlər görənlər isə behiştlikdirlər və orada əbədi olacaqlar.**

**1) ƏRAF, 42:**
**İman gətirib yaxşı işlər görənlər isə** – Biz heç kəsi qüvvəsi yetdiyindən artıq yükləmərik – cənnətlikdirlər, onlar orada əbədi qalacaqlar.

**2) ƏHQAF, 14:**
**Belələri cənnətlikdirlər,** onlar etdikləri əməllərin əvəzi olaraq orada əbədi qalacaqlar.

**3) BƏQƏRƏ, 39:**
Kafir olaraq ayələrimizi təkzib edənlər isə cəhənnəmlikdirlər, **Onlar orada əbədi qalacaqlar.**

## HAQQI YILMAZIN ARAŞDIRMALARINA ƏSASƏN QURANDAKI BƏZİ SÖZLƏRİN MƏNALARI

**Divanə** – Gizli gücləri olan / dəli.

**Təsbeh** – Təsbeh sözü “Allahı, Ona yaraşmayan şeylərdən pak tutmaq, uzaq tutmaq, yəni Allahı ucaltmaq, Onun bütün kamil sifətlərə sahib olduğunu dərk etmək və yeri gəldikcə bunu yüksək səslə söyləmək” mənasına gəlir.

**Qeyb** – Görmədikləri, bilmədikləri şeylər, gələcəkdə olacaq hadisələr, peyğəmbərə verilən vəhylər.

**Balıq sahibi** – Darlığa düşən kəs.

Əsas mənası “həbs etmək, içəridə saxlamaq” olan *səbr* sözü “ağlın və dinin göstərdiyi yolda davamlı olmaq, qərarlı olmaq, zəiflik göstərməmək”, yəni “insanın öz əlində olmadan başına gələn, ona böyük qüssə bəxş edən müsibətlərə qarşı dözümlü olmaq, onlara qalib gəlmək üçün mübarizə aparmaq” mənasını verir. Səbrin nə olduğuna baxdığımız zaman, nə olmadığını da bilməliyik. Bilməliyik ki, haqsız yerə məhkumiyyətə boyun əymək, miskinliyə, tənbəlliyə və həqarətlərə razı olmaq, zillətə, haqsız təcavüzlərə, insanın şərəfini ləkələyən hücumlara dözmək, belə şeylərə qarşı səssiz və passiv qalmaq, dözərək qatlaşmaq – səbr etmək deyil. Çünkü qanunsuzluqla qarşılaşdıqda səsini çıxarmamaq, o davranışa ortaq olmaq deməkdir. Əksinə, *səbr* “bu növ pisliklərə qarşı mübarizə aparmaq, onlara etiraz etmək, bir haqqı qorumağa və müdafiə etməyə çalışmaq və bu işdə qərarlı olmaq” deməkdir. Rəbbimiz *səbri* Ali-İmran surəsinin 146-cı ayəsində belə bəyan etmişdir: “Neçə-neçə peyğəmbərlər də vardı ki, onlarla birlikdə bir çox Allah adamı döyüşmüşdü; Allah yolunda onlara üz verənlərdən süstləşmədilər, zəiflik göstərmədilər və boyun əymədilər. Və Allah səbr edənləri sevər.” Bir insanın, öz gücü və iradəsiylə qalib gəlmək imkanı olan pisliklərə dözməsi və yaxud öz ehtiyaclarını ödəmək gücü olduğu halda, bu barədə süstlük göstərməsi səbr deyil, acizlik, tənbəllik və qorxaqlıqdır. Bütün peyğəmbərlərin ortaq xüsusiyyəti olan səbrin İslamdakı yeri çox mühümdür. Bunu bir və yaxud bir neçə sözlə ifadə etməyə çalışmaq, *səbr* sözünün mənasını tam olaraq əks etdirmir. Buna görə də *səbr* sözünü ərəbcədən dilimizə daxil olduğu kimi saxlayırıq. Ancaq oxucularımız *səbr* sözünün mənasını yaxşı bilməlidirlər. Səbr mövzusu “Təbynül-Quran”da təfsilatı ilə ələ alınmışdır.

Bizim “darlığa düşmək” kimi tərcümə etdiyimiz *hut* sözünün mənası “doymaq bilməmək, tətmin olmamaq səbəbindən meydana gələn darlıq” deməkdir. Balıqlarda doyma hissi olmadığından, balığa *hut* deyirlər. Burada *Hut sahibi* ifadəsi Yunus və Musa peyğəmbərlər üçün işlədilmişdir. Hər iki peyğəmbər də vəzifələrinin çətinliyindən ötrü darlığa düşmüş və vəzifədən boyun qaçırmağa çalışmışdı. Quranda *hut* sözü (Rəsmi Müshəf: Saffat / 139-149 və Kəhf / 61) hər ikisinə aid edilmişdir. Yenə Quranda (Rəsmi Müshəf: Saffat / 139-148, Nəml / 10 və Qəsəs / 31) bildirildiyinə görə, hər ikisi də onlara tapşırılan vəzifədən boyun qaçırmışdır.

**Kafirlər** – Allahın ilah və rəbb olduğunu bilərək rədd edən kimsələr.

**Ey örtünüb bürünən!** – Ey evinə qapanan şəxs!

Ayənin orjinalındakı müzzəmmil sözünün mənası “libasa yaxud hər hansı bir şeyə bürünən” deməkdir. Məcazi mənası isə “yatmağa hazırlaşmaq, yataq paltarını geyərək yatağa uzanmaq, yorğanı üstünə örtmək; heç kimə qaynayıb-qarışmadan özü öz başına yaşamaq” deməkdir. Biz burada ikinci məcazi mənasını tərcih etdik.

**Təvəkkül et** – Vəkil tut. “Bütün varlıqları müəyyən bir proqrama görə tərtibləyən və bu proqramı mühafizə edərək, dəstəkləyərək yerinə yetirən”

olaraq tanı!

*Vəkil* sözü "canlı-cansız bütün varlıqları müəyyən bir proqrama görə nizamlayan və bu proqramı qoruyaraq, dəstəkləyərək tətbiq edən" mənasına gəlir.

**Zəkat** – Müzzəmmil surəsinin 20-ci ayəsində rast gəlsə də, nazil olma ardıcıllığına görə Quranda zəkat sözü ilk dəfə burada işlənmişdir. Bu səbəbdən, zəkat barəsində qısa məlumat verməyi məqsədəuyğun gördük. Zəkat sözü "təmizlik, artıb çoxalmaq, bolluq və tərif" mənalarına gəlir. Quranda bu sözün fel forması bu mənaların hamısında işlədilmişdir. Əz-zəkat forması malın təmizlənməsinə, malın içindən yoxsullara, kimsəsizlərə və digər haqq sahiblərinə məxsus olan haqların çıxarılıb özlərinə verilməsinə deyilir. Yəni: "Möminlərin dövlətində, dövlətin var olması, varlığını davam etdirməsi, səlatın yerinə yetirilməsi (maddi və mənəvi dəstəyin, əmin-amanlığın təmin edilməsi) məqsədiylə möminlərin iman borcu, qulluq vəzifəsi olaraq verdiyi vergiyə" deyilir. Biz bu gün buna qısaca "vergi" deyirik. Ancaq bu vergi, sədəqə kimi adi bir vergi deyil, islami çərçivədə müəyyən edilən, verilən və xərclənən bir vergidir. Qurana görə, vergi verməyin vaxtı, qazancın əldə edildiyi andır.

**Ey örtüsünə bürünən!** - Daha əvvəl, *müzzəmmil* sözüylə xitab edildiyi halda, burada *ya eyyühəl-müddəssir* [ey üst paltarına bürünən] ifadəsi işlədilmişdir. Bir çox əsərdə *müzzəmmil* və *müddəssir* sözlərinə eyni məna verilmişdir. Halbuki iki sözün arasında mənaca incə bir fərq var. Bu fərq gözdən qaçırılsa, ayənin məzmunu lazımi şəkildə başa düşülə bilməz. *Müzzəmmil* sözü "paltar, yataq örtüyü, qaba örtük kimi şeylərlə ümumi mənada örtünmək" mənasına gəlir. *Müddəssir* sözü isə "ancaq camaatın arasına çıxarkən geyilən bir üst paltarıyla örtünmək" mənasına gəlir. *Müddəssir* sözünün əsli *mütədəssir* şəklindədir. *Dəsar* "cübbə, palto, plaş, qaftan kimi köynəyin üstündən geyilən patlar yaxud bürünülən libas" deməkdir.

Bu ayədə, Qurandakı bədii sənətlərdən biri olan məcaz sənətindən istifadə edilmişdir. Üst paltarının geyilməsi, məcazi mənada camaatın arasına çıxmaq, işə-gücə getmək üçün hazırlaşmaq mənasına gəlir. Bu məcaz vasitəsilə artıq Muhəmmədə peyğəmbərlik libasının verilməsi, onun təbliğə başlamaq üçün hazır olması bildirilmişdir.

Ayənin açıq-aşkar xitabı belə başa düşülməlidir: "Ey peyğəmbərlik libasını geyən! Ey peyğəmbərlik əlbisəsini geyərək peyğəmbərlik təchizatını qurşanan Muhəmməd!"

**Sura üfürüldüyü zaman** - "Üfürərək boru çalmaq" keçmiş dövrlərdə, bir yerə yığışmaq lazım gəldiyini yaxud da bir təhlükə gözlənildiyini xəbər vermək məqsədi ilə baş vurulan bir üsuldur. Belə borular əsasən iribuynuzlu heyvanların buynuzundan düzəldilirdi. Sura (boruya) üfürülməsi bir toplanış borusunun çalınmasını yaxud fitinin çalınmasını, məktəblərdə dərsin başladığını və ya başa çatdığını bildirən zəngin çalınmasını xatırladır. Biz bunu "həyəcan siqnalının çalınması" şəklində də başa düşə bilərik.

**Aləmlər** – Aləmlər sözü ilə "Allahın yaratdığı, Allahın imzasını daşıyan və Allahı tanıtmaq üçün bir işarə olan hər şey" nəzərdə tutulur.

**Növbəti seriyada ardı var...**

# ALLAHI İSİMLƏRİ İLƏ TANIYAQ



## ALİM

### Hər şeyi çox yaxşı bilən

***"Şərq də, qərb də Allahındır: hansı tərəfə yönəlsəniz, Allah oradadır. Şübhəsiz ki, Allah genişdir, biləndir!"* (Bəqərə surəsi, 115)**

İnsanlar düşünə biləcək şüura sahib olduqları andan etibarən öyrənməyə başlayırlar. Müəyyən bir yaşa çatdıqdan sonra da təhsil almağa və biliklər əldə etməyə davam edirlər. Hətta bəzi insanlar müəyyən bir mövzu üzrə mütəxəssisləşirlər. Məsələn, fizika mühəndisi fizika qanunlarının hamısını öyrənə bilər və ya fəlsəfə üzrə təhsil almış insan fəlsəfi mövzulara tam olaraq hakim ola bilər. Yenə yeni tarix üzə mütəxəssisləşmiş tədqiqatçı yeni tarixlə əlaqəli çox dəqiq şərhlər verə bilər. Çünki bu mövzu ilə əlaqədar öyrəniləcək hər şeyi bilir.

Yuxarıda saydıqlarımız, əlbəttə, 'bilmək' felinin insanlarla əlaqədar olan qismidir. Ancaq 'bilmək' felinin insanların əsla təsəvvür edə bilməyəcəyi, güc çatdıra bilməyəcəyi bir ölçüsü var: Allahın bilməsi...

Allah göylərin, yerin, bu ikisinin arasında olan bütün canlıların, kainatda işləyən bütün qanunların, hər an meydana gələn bütün hadisələrin məlumatına sahibdir. Çünki hamısının yaradıcısı Odur. Üstəlik, Allahın bilməsi sonsuzdur; Allah eyni anda dünya üzərində doğan və ölən insanların kim olduqlarını, yer üzündəki hər bir ağacdan düşən yarpaqların sayını, kainatdakı milyardlarla qalaktikanın içindəki milyardlarla ulduzun hər birinin xüsusiyyətlərini və burada səhifələrlə saysaq da, əsla bitirə bilməyəcəyimiz hər şeyi bilir. O, yer üzündə, eyni anda kosmosda meydana gələn hər hadisəni, dünya üzərindəki milyardlarla insanın, heyvanın, bitkinin hüceyrələrində kodlanmış şifrləri də bilir.

İnsanın unutmamalı olduğu çox əhəmiyyətli bir sirr var: Allah yuxarıda sayılan bütün detallarla yanaşı, insanın daxilini, ağlından keçənləri, gizli və ya açıq işlədiyi bütün əməlləri də bilir. İnsan içində yaşadığı duyğularını, düşüncələrini, sıxıntılarını yalnızca özünün bildiyini zənn edir, amma bu, böyük yanılmadır. Kainatın hər nöqtəsinə tam olaraq hakim olan Allah insanın daxilinə və xaricinə də hakimdir. Belə ki, Allahın bu sonsuz biliyi bir çox ayədə bildirilmişdir:

***Sevdiyiniz şeylərdən sərf etməyincə savaba çatmazsınız. Şübhəsiz ki, Allah xərclədiyiniz hər bir şeyi biləndir!*** (Ali-İmran surəsi, 92)

***Məgər göylərdə və yerdə olanların, qanadlarını açıb uçan quşların Allahı təqdis edib şəninə təriflər dediklərini görmürsənmi?! Allah onlardan hər birinin duasını, şükür-sənasını bilir. Allah onların nə etdiklərini biləndir!*** (Nur Surəsi, 41)

***Günəş də özü üçün müəyyən olunmuş yerdə seyr edər. Bu, yenilməz qüvvət sahibi olan, bilən Allahın təqdiridir.*** (Yasin surəsi, 38)

***Bilin ki, Allahdan gizlənmək məqsədilə ikiqat olarlar. Xəbərdar olun ki, onlar libaslarına büründükdə belə, Allah onların gizli saxladıqları və aşkar etdikləri hər şeyi bilir. Allah ürəklərdə olanları biləndir.*** (Hud surəsi, 5)

***Onlar öz əməllərini bildiklərinə görə ölümü əsla istəməzlər. Allah zalımları tanıyandır!*** (Bəqərə surəsi, 95)

***Onları siz öldürmədiniz, Allah öldürdü. Atdığın zaman sən atmadın, Allah atdı.***

***Allah bununla möminləri yaxşı bir imtahandan keçirtdi. Allah eşidəndir, biləndir!*** (Ənfal surəsi, 17)

***"Əgər üz çevirsəniz, (bilin ki,) mənə əmr olunanı sizə çatdırdım. Rəbbim yerinizə başqa bir camaat gətirər və siz də Ona heç bir zərər yetirə bilməzsiniz. Şübhəsiz ki, Rəbbim hər şeyi hifz edir."***

(Hud surəsi, 57)

***De: "O, ər-Rəhmandır! Biz Ona iman gətirib, Ona təvəkkül etmişik. Kimin tam azğınlıq içində olduğunu biləcəksiniz"*** (Mülk surəsi, 29)

***Allah müttəqilərə uğurlarına görə nicat verəcək. Onlara pislik toxunmayacaq və onlar kədərlənməyəcəklər. Allah hər şeyin Xaliqidir. O, hər şeyi qoruyandır. Göylərin və yerin açarları Ondadır. Məhz Allahın ayələrini inkar edənlər ziyana uğrayanlardır.***

(Zumər surəsi, 61-63)

## ƏHKAMUL-HAKİMİN

### Hökm verənlərin hakimi

***"Məgər Allah hakimlərin hakimi deyilmi?!"*** **(Tin surəsi, 8)**

Hər işin hökmünü verən, nəticələndirən Allahdır. Bütün hadisələr Onun əmri ilə, diləməsi ilə meydana gəlir və inkişaf edir. Allahın verdiyi hökmlərdə mütləq bir çox hikmət gizlidir. Lakin insanların çoxu Allahın hökmlərini öz məhdud ağılları ilə qiymətləndirir və beləliklə də Allahın hökmlərini tam olaraq qavraya bilmirlər. Halbuki, Allah sonsuz ağılın sahibidir. Üstəlik, zaman və məkandan da münəzzəhdir; bu anlayışları yaradan, insanların zamana və məkana tabe olaraq yaşamasını uyğun biləndir. İnsan heç vaxt bir gün sonra, hətta bir saat sonra nələr yaşayacağını bilmir. O isə bir işə hökm etdiyi zaman bir gün sonra, illər sonra və hətta qiyamətə qədər o işin nə ilə nəticələnəcəyinə də hakimdir. Buna görə də verdiyi hökm hər zaman ən doğru, ən yaxşı və ən hikmətli olandır.

Lakin iman etməyənlər bu həqiqəti başa düşmürlər. Ətraflarında baş verən hər hadisənin müəyyən səbəblərə bağlı olaraq təsadüfən meydana gəldiyini zənn edirlər. Allahın hökm etdiyi hadisələrdəki hikmətləri qiymətləndirə bilmirlər. Meydana gələn hər hadisənin Allahın idarəsində olduğunu anlamırlar. Möminlər isə Allahın verdiyi hökmlərin hikmətlərini qavramağa çalışır və Onun daim ən yaxşı və ən xeyirli hökm verən olduğunu bilirlər. Allah Quranda belə buyurur:

***Sənə nə vəhy gəlirsə, ona tabe ol. Allah hökm verənə qədər səbir et. O, hökm verənlərin ən yaxşısıdır!***

(Yunis surəsi, 109)

***Nuh Rəbbinə müraciət edib dedi: "Ey Rəbbim! Oğlum mənim ailə üzvlərimdəndir. Sənin vədin, sözsüz ki, haqdır. Sən hakimlərin hakimisən!"***

(Hud surəsi, 45)

## ƏLİYY

### Çox uca olan

***"Allah bəşər övladı ilə ancaq vəhy ilə, yaxud pərdə arxasından danışar. Və ya bir elçi göndərər ki, o da Allahın izni ilə Onun istədiyini vəhy edər. Həqiqətən, O, ucadır, hikmət sahibidir!"***

**(Şura surəsi, 51)**

Allah Özünü Quranda bizə tanıdıb: bütün aləmləri yaradan, kainatın tək hakimi olan Allah ucadır. Göylərin, yerin və bu ikisinin arasında olanların yeganə sahibi Odur. Ondan başqa ilah yoxdur, Allah insanların şirk qoşduqlarından çox ucadır. Bütün mülk Allaha aiddir; O, hər şeyə gücü çatandır. O, uca məqamların da sahibidir. Allah aləmlərdən münəzzəhdir.

***(Allah) qeybi və aşkarı Biləndir, Böyükdür, Ucadır. Aranızdan sözü gizlədənlər də, onu açıq deyənlər də, gecə gizlənib, gündüz gəzib dolananlar da (Allah dərgahında) eynidirlər. Allahın əmri ilə insanın həm önündə, həm də arxasında daim onunla birlikdə olub onu qoruyan mələklər vardır. Həqiqətən də, insanlar nəfslərində olanı dəyişmədikcə, Allah da onlarda olanı dəyişməz. Əgər Allah hər hansı bir camaata pislik etmək istəsə, heç nə onun***

***qarşısını ala bilməz. Onların Ondan başqa ixtiyar sahibi yoxdur.(İldırımdan) qorxasınız və (yağışın yağmasına) ümid bəsləyəsiniz deyə sizə şimşək göstərən və (yağış dolu) ağır buludları var edən Odur.*** (Rad Surəsi, 9-12)

Şübhəsiz, ən gözəl adlar Allaha aid olduğu üçün Onu əskiksiz olaraq tərif etmək mümkün deyil. Allahı ancaq Özünün bizə bildirdiyi qədər tanıya bilirik, ucalığını ancaq Quran ayələri ilə təqdir edə bilirik. Allah bir ayəsində Öz ucalığını bu cür tərif edib:

***Allah, Ondan başqa ilah yoxdur. Əbədi, əzəli varlıq Odur. O, nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa Onundur. Allahın izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini bilir. Onlar Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur!*** (Bəqərə surəsi, 255)

## ASİM
### Qoruyan

***“(Oğlu ona) belə cavab verdi: “Mən bir dağa sığınaram, o da məni sudan qoruyar.” Nuh dedi: “Allahın rəhm etdiklərindən başqa, bu gün heç kəs Onun əzabından qoruya bilməz!”...”* (Hud surəsi, 43)**

İnsan aciz olduğu üçün hər an hər cür çətinliklə qarşılaşa bilər. Məsələn, dünya hər an təbii fəlakətlərin meydana gəldiyi yerdir. Zəlzələlər, sellər, qasırğalar, vulkan püskürmələri tez-tez rast gəlinən hadisələrdir. Eyni şəkildə, insanı mənən çətinliyə salan bir çox hadisə də var. Bu hadisələr qarşısında unutmamalı olduğumuz bir gerçək var: insan nə qədər acizliyindən xilas olmağa çalışırsa çalışsın, Allahın diləməsi xaricində başına gələcək hər hansı hadisədən qoruna bilməz. İnsan üçün tək qoruyucu Rəhman olan Allahdır. Quranda bu vəziyyət belə bildirilmişdir:

***De: "Əgər bizi suyun və qurunun zülmətindən qurtarsan, əlbəttə, şükür edənlərdən olarıq"deyə yalvardığınız zaman sizləri bunlardan xilas edən kimdir?" De: "Sizi ondan xilas edən və hər bir qəmdən qurtaran Allahdır. Sonra siz yenə də şərik qoşursunuz?"*** (Ənam surəsi, 63-64)

İnsanlar tək qaldıqda əllərindəki maddi imkanların, yaxınlarının onlara heç nə ilə kömək edə bilməyəcəyini anladıqları anlarda, ya da sağlamlıqlarını itirdikləri zaman Allahı zikr edir, Ondan kömək diləyirlər. Ancaq O, özlərini qurtardıqda yenə nankorluq edib başlarına gələnləri unudurlar. Dünyada Allahdan başqa qoruyucu tapa bilməyəcəyini anlamayan, Onun hər cür köməyinə baxmayaraq, nankorluqda dirənən bu şəxslər axirətdə sonsuz əzabla qarşılaşaraq gerçəyi görəcəklər.

Bu şəxslərin vəziyyəti ayədə belə xəbər verilir:

***... (Allah`a ibadət etməyi) özlərinə sığışdırmayanları və təkəbbür göstərənləri isə acı bir əzaba düçar edəcəkdir! Onlar özlərinə Allah`dan savayı nə bir dost, nə də havadar tapacaqlar!*** (Nisa surəsi, 173)

***"Əgər üz çevirsəniz, (bilin ki,) mənə əmr olunanı sizə çatdırdım. Rəbbim yerinizə başqa bir camaat gətirər və siz də Ona heç bir zərər yetirə bilməzsiniz. Şübhəsiz ki, Rəbbim hər şeyi hifz edir."*** (Hud surəsi, 57)

***De: "O, ər-Rəhmandır! Biz Ona iman gətirib, Ona təvəkkül etmişik. Kimin tam azğınlıq içində olduğunu biləcəksiniz"*** (Mulk surəsi, 29)

***Allah müttəqilərə uğurlarına görə nicat verəcək. Onlara pislik toxunmayacaq və onlar kədərlənməyəcəklər. Allah hər şeyin Xaliqidir. O, hər şeyi qoruyandır. Göylərin və yerin açarları Ondadır. Məhz Allahın ayələrini inkar edənlər ziyana uğrayanlardır.*** (Zumər surəsi, 61-63)

# ƏZİM

## Çox əzəmətli, böyük olan

***"Göylərdə və yerdə nə varsa Onundur! O, ucadır, uludur!"*** **(Şura surəsi, 4)**

Şübhəsiz ki, Allahın böyüklüyü və əzəməti insanların qavrayış sərhədlərini aşır. Lakin insan yenə də öz ağlının sərhədləri çərçivəsində Allahın nə qədər güclü və qüdrətli olduğunu görüb anlaya bilər. Çünki bütün kainat Allahın böyüklüyünü göstərən saysız-hesabsız nümunə ilə doludur. İnsan sadəcə yaşadığı dünyanı bir az araşdırsa, hər şeyi yaradan Allahın əzəmətini hiss edəcək.

Ağırlığı tonlarla olan buludları daşıyan səma, minlərlə metr yüksəyə uzanan dağlar, milyonlarla növ canlının yaşadığı dənizlər, çaxan şimşək, onun ardından gələn göy gurultusu və Allaha boyun əymiş milyardlarla canlı... Bunlar və burada saymadığımız saysız detal Allahın böyüklüyünün açıq dəlillərindəndir.

İndi dünyanın bir az xaricinə çıxıb düşünək. Bu nümunə kainatı yaradan, sonsuz əzəmət sahibi olan Rəbbimizi bir az daha dərin qavramağımıza kömək olacaq:

Kainat adı verdiyimiz sərhədsiz məkanın içində yaşayırıq. Bu gün elm adamlarının araşdırmalarına görə, kainatda milyardlarla qalaktika mövcuddur. Bəs bu qalaktikaların içində nələr var? Elmin bizə bildirdiyinə görə, hər qalaktikanın içində milyardlarla ulduz olduğunu bilirik. Biz də içində milyardlarla ulduz ehtiva edən milyardlarla qalaktikadan birinin içində, Dünya adı verilən və saatda 1670 km sürətlə heç dayanmadan dövr edən planetin üzərində yaşayırıq. Şübhəsiz, bu rəqəmlərlə düşündükdə kainatdakı varlığımızın toz zərrəciyi ilə müqayisə edilməyəcək dərəcədə kiçik olduğu aydın olacaq.

İnsan səmimi olaraq düşünəndə də milyardlarla qalaktikanı yaradan və hamısını hökmü altında saxlayan Rəbbimizin əzəmətini dərk edə bilər. Rəbbimiz bütün kainatı yaradan, milyardlarla ulduzu, qalaktikaların hamısını idarə edən üstün gücün sahibidir. Allah Öz üstün sifətlərini bir ayədə belə xəbər verir:

***Allah… Ondan başqa heç bir ilah yoxdur. Əbədi, əzəli varlıq Odur. O, nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa Onundur. Allahın izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini bilir. Onlar Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur!***

(Bəqərə surəsi, 255)

***(Allah) qeybi və aşkarı biləndir, böyükdür, ucadır. Aranızdan sözü gizlədənlər də, onu açıq deyənlər də, gecə gizlənib, gündüz gəzib dolananlar da (Allah dərgahında) eynidirlər. Allahın əmri ilə insanın həm önündə, həm də arxasında daim onunla birlikdə olub onu qoruyan mələklər vardır. Həqiqətən də insanlar nəfslərində olanı dəyişmədikcə Allah da onlarda olanı dəyişməz. Əgər Allah hər hansı bir camaata pislik etmək istəsə, heç nə onun qarşısını ala bilməz. Onların Ondan başqa ixtiyar sahibi yoxdur. Qorxasınız və ümid bəsləyəsiniz deyə, sizə şimşək göstərən və ağır buludları var edən Odur.*** (Rəd surəsi, 9-12)